www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25 fevral 2015-ci il Çərşənbə № 42 (6070) Qiymətі 40 qəpik

**Xəbər**

## Dollar "zirvədə" qaldı, əmanətlərin faiz dərəcəsi isə artırıldı

yazısı səh.15-də

**Gündəm**

### ABŞ İrəvanı kəlbəcərli girovları azad etməyə çağırdı



Dövlət Departamenti erməni tərəfini humanizmə səslədi; sabah - Xocalı soyqırımının ildönümündə soydaşlarımızın "apelyasiya şikayəti"nə baxılacaq

yazısı səh.11-də

# Parlament sədrindən sensasion açıqlama

# AZƏRBAYCAN MÜHARİBƏ İQTİSADİYYATINA KEÇİR - "MANATIN SİRRİ"

Oqtay Əsədov Milli Məclisdə manatın ucuzlaşması ilə bağlı məsələnin müzakirəsində "müharibə ola bilər, ona görə də bütün ehtiyatları xərcləyə bilmərik" deyib, cəmiyyətə üstüörtülü mesaj verdi; belə görünür ki, hökuməti büdcəyə əlavə vəsait toplamağa vadar edən səbəb elə müharibə ehtimalıdır



yazısı səh.9-da

### Aslanovun oğlu 300 minlik maşını hansı pula alıb?

yazısı səh.12-də

### Müsavatla ADR arasında indi də say mübahisəsi başladı

yazısı səh.6-da

### Müxalifətdən "Praqada inqilabçılar hazırlanacaq" xəbərinə reaksiya

yazısı səh.8-də

### Məhbus anası "Tubzon"dakı işgəncədən danışdı

yazısı səh.4-də

### Rəsul Cəfərovun məhkəməsində ziddiyyətli ifadələr

yazısı səh.5-də

*POSAT kooperativinin rəhbəri:*

### "Hacı Qalibi debata çağırırıq"

yazısı səh.13-də

### Market və bazarlarda bahalaşma həyəcanı

yazısı səh.15-də

### Toy-yas qadağasından ən çox restoranlar və işbazlar qazanacaq

yazısı səh.13-də

### Son üç gündə yol qəzalarında 20 nəfər ölüb

yazısı səh.14-də

### Cəmil Həsənlinin qızı necə cəza çəkəcək?

yazısı səh.5-də

## Dövlət Miqrasiya Xidmətinin rəisi haqda heyrətamiz iddialar

DMX rəisinin sensasion "əməliyyat"ları; "Firudin Nəbiyevin işçiləri səlahiyyət hədlərini aşaraq əcnəbiləri gecə ikən girov götürürlər"

yazısı səh.4-də



*Nadir Səlifov: :*

### "Mən Azərbaycanda yeganə "qanuni oğru"yam ki..."

yazısı səh.10-da



*Razi Nurullayev:*

### "Əli Kərimli iqtidardakı iki adama işləyir"

yazısı səh.6-da



Rahat Əliyev

### Nazarbayevin kürəkəninin ölümü: intihar, yoxsa qətl...

yazısı səh.12-də



**Müsavat Partiyasının başqanı Arif Hacılı Nazim Azadoğlunu 50 illik yubileyi münasibətilə təbrik edib. Təbrikdə deyilir:**

**"Hörmətli Nazim bəy!**

**Sizi 50 llik yubileyiniz münasibəti ilə təbrik edir, Sizə uzun ömür, cansağlığı və demokratik inkişaf uğrunda apardığınız mübarizədə uğurlar arzulayıram.**

**Siz Azərbaycanda başlanan milli azadlıq hərəkatının iştirakçılarından olmusunuz. 1994-cü ildən Müsavat Partiyasının üzvü kimi partiyanın işində daim fəallıq göstərmiş, öz fədakarlığınızla başqalarına nümunə göstərmisiniz.**

**Müsavat Partiyasının Qubadlı rayon təşkilatının sədri kimi gördüyünüz işlərlə, partiyanın keçirdiyi siyasi aksiyalarda, seçki kampaniyalarında fəaliyyətinizlə partiyaya ciddi töhfələr vermisiniz.**

**Fəal həyat mövqeyiniz, işgüzarlığınız, prinsipiallığınız, səmimiyyətiniz partiyadaşlarımız və ictimaiyyət arasında Sizə nüfuz qazandırıb. Əminəm ki, Sizi tanıyanlar, yaxınlarınız hər zaman Sizin kimi əqidəli bir müsavatçının həyat yolu ilə qürur duyacaqlar.**

**Hörmətli Nazim bəy!**

**Sizi bir daha 50 yaşınızın tamam olması münasibətilə ürəkdən təbrik edir, apardığımız bu müqəddəs mübarizədə uğurlar arzulayıram".**

# Parlamentdə deputatla vitse-spiker arasında toqquşma

## Fəzail Ağamalının elmin öldüyünü deməsi qalmaqal yaratdı

**"Elm haqqında" qanun layihəsinin parlamentin plenar iclasında birinci oxunuşda müzakirəsi zamanı qalmaqal yaşanıb. Deputat Fəzail Ağamalı ümid edib ki, qanunun qəbulundan sonra Azərbaycan elmindəki problemlər öz həllini tapacaq. O qeyd edib ki, bu qanun layihəsi Azərbaycan elmini "ölü nöqtə"dən çıxaracaq:**



"Bu gün Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Akif Əlizadənin çiyinlərinə Azərbaycan elmində olan durğunluğu aradan qaldırmaq kimi ağır yük düşür". Milli Məclis sədrinin birinci müavini Zifayət Əsgərov isə F.Ağamalının fikirlərini etirazla qarşılayıb: "Deyirsiniz ki, Azərbaycan elmi ölü vəziyyətindədir. Elədirsə, elm yoxdursa, siz özünüz diplomu necə, haradan almısınız?" F.Ağamalı yerdən replika ataraq deyib ki, ali təhsil diplomunu SSRİ zamanında alıb. "Onda qayıdın Sovet dövrünə. Belə demək düzgün deyil, axı?!" - deyə Z.Əsgərov onun replikasına cavab verib.

**Deputat Aytən Mustafayeva da deputat həmkarına etiraz edib:** "Azərbaycanda Elmlər Akademiyası ölməyib. Azərbaycanda elm də var, alim də. Amma bizdə elm adamlarına münasibət başqadır-həmin münasibət dəyişməlidir. Çox təəssüflər olsun ki, bizdə elm adamlarına hörmət yoxdur".

❑ **ELŞAD**




## AzadlıqRadiosunun keçmiş rəhbərini ölkədən çıxmağa qoymadılar

**AzadlıqRadiosu Bakı bürosunun keçmiş rəhbəri Babək Bəkirin Bakı aeroportunda təyyarəyə minməsinə icazə verilməyib.**

Bu barədə məlumatda bildirilir ki, B.Bəkir prokurorluğun göstərişi ilə ölkədən çıxmasına qadağa qoyulub. Bəkirə öncədən belə bir qadağanı əsaslandıracaq hər hansı ittiham barədə informasiya verilməyib.

Fevralın 23-də Azərbaycan xidmətinin keçmiş ştatdankənar əməkdaşlarından biri prokurorluqda dindirilməyə çağırılıb. Həmin keçmiş əməkdaş təhlükəsizliyinə görə adının açıqlanmasını istəmir.

"Yeni Müsavat"a daxil olan məlumatda isə bildirilir ki, hazırda AzadlıqRadiosu əməkdaşlarının bir qismi ölkəni tərk etməyə hazırlaşır, bəzilərinin sorağı isə artıq xaricdən gəlir. Sonuncular xaricdən çəkdirdikləri fotoları sosial şəbəkə vasitəsilə paylaşırlar. İstintaq isə ötən ilin sonlarından radio əməkdaşlarına qarşı başladığı təzyiqə yenidən start verib. Radio rəhbərliyi daha öncə Amerikanın yeni səfirinin təyinatı, eləcə də ABŞ dövlət katibinin müavini Viktoriya Nulandın ölkəyə səfərindən sonra bu problemin çözüləcəyinə ümid etdiyini açıqlamışdı. Amma görünən budur ki, səfərdən sonra istintaq yenidən öz işini sürətləndirib, necə deyərlər, "qaldığı yerdən" davam edir.

Fevralın 24-də tanınmış yazar Şahvələd Çobanoğlu Respublika Prokurorluğunun Ağır Cinayətlər İdarəsinə çağırılıb. Bu barədə "Azadlıq" qəzetinin yazarı Rövşən Hacıyev facebook səhifəsində xəbər verib. Xatırladaq ki, Ş.Çobanoğlu bundan öncə də bir neçə dəfə istintaqa ifadə verib. Xatırladaq ki, ötən il dekabrın 26-da AzadlıqRadiosunun Bakı bürosu möhürlənəndən sonra radionun 26 jurnalisti və ştatdankənar əməkdaşı dindirilib.

❑ **Sevinc TELMANQIZI**

# Lisenziyasız həkimlərə sərt cəzalar tətbiq ediləcək

**Azərbaycanda tibb fəaliyyəti ilə məşğul olan şəxslər onlara verilmiş xüsusi razılıqda (lisenziya) göstərilmiş işlər və xidmətlərdən kənar tibb fəaliyyətini həyata keçirməyə görə cərimələnəcəklər. Milli Məclis 24 fevraldakı plenar iclasında İnzibati Xətalar Məcəlləsinə bu barədə dəyişiklik edib.**

Məcəlləyə əlavə edilən maddəyə əsasən, Azərbaycanda tibbi fəaliyyətlə məşğul olan şəxslər tərəfindən dövlət tibb müəssisələrinin nizamnamələrində və ya özəl tibb sahəsində onlara verilmiş xüsusi razılıqda (lisenziya) göstərilmiş işlər və xidmətlərdən kənar (ilkin tibbi yardım istisna olmaqla) tibb fəaliyyətinin həyata keçirilməsinə görə fiziki şəxslərin cərimələri ciddi şəkildə artırılıb. Belə ki, qanunları pozanlar 300 manatdan 500 manatadək, vəzifəli şəxslər 800 manatdan 1000 manatadək, hüquqi şəxslər 2 min manatdan 3 min manatadək miqdarda cərimə edilir. Məcəlləyə edilən dəyişikliyə əsasən tibb işçiləri öz vəzifələrini yerinə yetirərkən, ixtisaslaşdırılmış tibbi yardım göstərilməsi tələb olunan şəxsləri bu yardımı göstərən tibb müəssisələrinə göndərmədiklərinə görə fiziki şəxslər 100 manatdan 300 manatadək, vəzifəli şəxslər 500 manatdan 800 manatadək miqdarda cərimə edilir. "Əhalinin sağlamlığının qorunması haqqında" Qanununa təklif edilən dəyişikliklərə əsasən isə Azərbaycanda tibb fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən dövlət tibb müəssisələrinin nizamnamələrində və ya özəl tibb sahəsində onlara verilmiş xüsusi razılıqda (lisenziya) göstərilmiş işlər və xidmətlərdən kənar (ilkin tibbi yardım istisna olmaqla) tibb fəaliyyətinin həyata keçirilməsinə yol verilmir. Qanuna edilən digər dəyişikliyə əsasən, tibb müəssisələrində vətəndaş üçün zəruri olan ixtisaslaşdırılmış tibbi yardım göstərilməsi mümkün olmadıqda, müəssisənin müalicə həkimi tərəfindən həmin şəxs bu yardımı göstərən dövlət tibb müəssisələrinə və ya şəxsin istəyinə uyğun olaraq özəl tibb müəssisəsinə göndərilir.

❑ **ELŞAD**

# Müxalifət Xocalı şəhidlərini yad edəcək

## Düşərgənin 26 fevralla bağlı tədbirlər planı var

**Yaxın günlərdə dünyanın ən dəhşətli soyqırımlarından biri olan Xocalı faciəsinin növbəti ildönümü olacaq. 23 il öncə fevralın 25-dən 26-na keçən gecə Ermənistan Silahlı Qüvvələri Rusiyanın 366-cı motoatıcı alayının köməyi ilə Xocalı şəhərini işğal etdi.**

Şəhəri tərk edən 2500 Xocalı sakinindən 613-ü düşmən gülləsinə tuş gəldi. Soyqırım nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla - 613 nəfər Xocalı sakini qətlə yetirildi, 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirdi. Düşmən gülləsinə tuş gəlib yaralanan 487 nəfərdən 76-sı uşaq idi. 1275 xocalılı əsir, 150 xocalılı itkin düşdü.

26 fevral günü saat 17:00-da ölkəmizdə Xocalı qurbanları bir dəqiqəlik sükutla yad ediləcək. Dövlət bayraqlarımız endiriləcək.

Ölkə müxalifətinin bu günlə bağlı tədbirlər planı var. Demokratik düşərgə «Xətai» metro stansiyası üzərində Xocalı şəhidlərinin xatirəsinə ucaldılmış "Ana harayı" abidəsini ziyarət edəcək.

**Müsavat Məclisinin sədri Nüşabə Sadıxlı partiyanın tədbirlər planından danışdı:** "Müsavat Divanında bu məsələ müzakirə olundu. Təbii ki, hər olduğu kimi, bu il yenə də partiyanın Xocalı şəhidləri ilə bağlı tədbirlər planı var. 26 fevralda Müsavat "Ana harayı" abidəsini ziyarət edəcək. Qərargahda da tədbir keçirmək planlaşdırılır".

**Ümid Partiyası 125-lər Siyasi Klubu ilə birlikdə Xocalı qurbanlarını anacaq. Partiyanın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Tamilla Qulamı qərargahda tədbir təşkil olunacağını qeyd etdi:** "Həmin gün partiyamızın qərargahında Xocalı faciəsi ilə bağlı tədbir keçiriləcək. «125-lər Siyasi Klubu ilə birlikdə Xocalı qurbanlarını ziyarət edəcəyik".

**VHP Ali Məclisinin katibi Asif Şəkərli partiyanın sədri Sabir Rüstəmxanlının Xocalı faciəsi ilə əlaqədar Türkiyədə keçirilən tədbirlərə qatıldığını söylədi:** "Xocalı faciəsi ilə bağlı VHP sədri Sabir Rüstəmxanlı Türkiyədə təşkil olunan anım tədbirlərinə qatılmaq üçün qardaş ölkədədir. Artıq dünəndən o, tədbirlərə qatılıb. Taksimdəki yürüşdə iştirak edib. Türkiyənin bir sıra nüfuzlu universitetlərindəki tədbirlərə qatılıb, çıxış edəcək. Həmçinin 26 fevral günü VHP Ali Məclisinin sədri Rafiq Manaflının rəhbərliyi ilə partiya üzvləri "Ana harayı" abidəsini ziyarət edəcəklər. VHP sədrinin müavini, millət vəkili Fəzail İbrahimli də Xocalı ilə bağlı bir sıra dövlət tədbirlərində partiyanı təmsil edəcək. Bundan əlavə, VHP Xocalı rayon təşkilatının təşkilatçılığı ilə Gəncədə anım tədbiri təşkil ediləcək".

❑ **Cavanşir ABBASLI**

# Bakının statusu söhbəti parlamentdə mübahisə yaratdı

**Milli Məclisin son iclasında deputat Yevda Abramov təklif edib ki, faşizm üzərində qələbənin 70 illiyi ilə əlaqədar Bakıya "Qəhrəman şəhər" statusunun verilməsi ilə bağlı Rusiya Federasiyasına müraciət edilsin. Vitse-spiker Ziyafət Əsgərov təşəbbüsü dəstəkləməklə yanaşı deyib ki, bu barədə əvvəllər də müraciət olunub. Deputat Fazil Mustafa isə təşəbbüsün əleyhinə çıxıb. O, bu təklifi əsassız hesab etdiyini bildirib:**

"Biz müstəqil dövlətik. Bizim nəyimizə lazımdır artıq ötüb keçmiş məsələyə görə Bakı şəhərinə qəhrəman şəhər adı verilsin?" Z.Əsgərov isə deyib ki, Rusiya SSRİ-nin hüquqi varisidir: "Bu, müharibəni udan Azərbaycan neftidir. Bütün dünya bilsin ki, bu müharibənin udulmasında Bakı neftinin hansı rolu olub. Ancaq mən razıyam ki, bu ad bizə verildi, verilmədi, adın həsrətində deyilik".

❑ **ELŞAD**

## TƏKZİB

**"Yeni Müsavat" qəzetinin 3 iyul 2010-cu il tarixli, N 168 (4484) saylı sayında "Azadlıq" qəzetinə istinadən "Fövqalnazir"lə nazir oğlu arasında ayı kababı söhbəti" başlığı "Anar Məmmədov Kəmaləddin Heydərovun restoranındakı əyripəncəni 1 milyon manata kəsdirib kabab bişirtdirib"; "Yeni Müsavat" qəzetinin 21 iyul 2010-cu il tarixli, N 186 (4502) saylı sayında heç bir mənbəyə istinad etmədən "Prezident Ziya Məmmədovu danlayıb" başlığı və " Anar Məmmədovun ayı kababı yeməsinin və yaxta avtoşluğunun hesabı atasına ödətdirilir"; "Yeni Müsavat" qəzetinin 05 avqust 2010-cu il tarixli, N 201 (4517) saylı sayında heç bir mənbəyə istinad etmədən "Anar Məmmədov ayını kimlərlə yeyib" başlığı və "Ölkəyə səs salan məclisdə Cavid Qurbanovla Arif Əsgərovun oğulları da olub; məmur balalarının macərasının videosu ölkə rəhbərliyinə təqdim edilib"; "Yeni Müsavat" qəzetinin 14 sentyabr 2010-cu il tarixli, N 239 (4555) nömrəli sayında "Turan" informasiya agentliyinə istinadən "Şeyx Anar Məmmədovu Dubaydan qovub" başlığı və "Azərbaycanlı kişilərin Dubayda səfərinə qadağa qoyulmasına nazir övladının davranışı səbəb olub, "Burc Xəlif"də müdhiş dava"; "Yeni Müsavat" qəzetinin 15 sentyabr 2010-cu il tarixli, N 240 (4556) nömrəli sayında "Turan" informasiya agentliyinə istinadən "Anar Məmmədovun yaratdığı beynəlxalq qalmaqala reaksiya verilmir" başlığı və "Nəqliyyat nazirinin oğlunun "ərköyünlükləri" artıq dövlətə də problemlər yaradıb"; "Yeni Müsavat" qəzetinin 20 iyun 2011-ci il tarixli, N 161 (4820) nömrəli sayında "Nazir oğlunun bahalı avtomobili ölkəyə buraxılmadı" başlığı və "1 milyon dollarlıq maşından dünyada cəmi uççə dənədir" adlı məqalələrdə Anar Ziya oğlu Məmmədovla bağlı bir sıra məlumatlar yayılmışdır.**

**"Yeni Müsavat" qəzeti Azərbaycan Respublikası məhkəmələrinin qüvvəyə minmiş məhkəmə qərarlarının icra edilməsinin zəruriliyi haqqında qanunun tələblərini yerinə yetirərək və həmin məqalələrdə dərc olunan məlumatların öz təsdiqini tapmadığını və bu səbəbdən həqiqətə uyğun olmadığını bildirərək bu cür məlumatları yaydığına görə üzr istəyir.**



# İlham Əliyev Mingəçevirdə

**Azərbaycan prezidenti İlham Əliyev Mingəçevir şəhərinə səfər edib. Dövlət başçısı Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edib.**

Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov prezident İlham Əliyevə burada aparılan abadlıq işləri barədə məlumat verib.

Prezident 594 məcburi köçkün ailəsi üçün yeni salınan yaşayış kompleksində yaradılan şəraitlə tanış olub.

ANS PRESS-in məlumatına görə, baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov prezident İlham Əliyevə yeni salınan yaşayış kompleksi barədə məlumat verib.

Dövlət başçısı 480 şagird yerlik məktəb binasında yaradılan şəraitlə tanış olub.



# İlqar Məmmədov Avropa Birliyinin nümayəndəsi ilə görüşüb

**24 fevralda REAL Hərəkatının sədri İlqar Məmmədov həbsxanada Avropa Birliyinin insan hüquqları üzrə xüsusi nümayəndəsi Stavros Lambrinidislə görüşüb.**

Bu haqda cumhuriyyet.org saytı məlumat verib.

1 saata qədər davam edən görüş zamanı Avropa Enerji təhlükəsizliyi kontekstində Azərbaycanda insan haqlarının qorunması məsələsi müzakirə edilib. Görüşdə Avropa Birliyinin Azərbaycandakı missiyasının rəhbəri səfir Malena Mard da iştirak edib.

2013-cü il martın 17-də Şəki Ağır Cinayətlər Məhkəməsi 23-24 yanvar 2013-cü il İsmayıllı iğtişaşları ilə əlaqədar 18 nəfər təqsirləndirilən şəxsin barəsində hökm verib. REAL Hərəkatının lideri İlqar Məmmədov 7 il azadlıqdan məhrum edilib.

2014-cü il mayın 22-də Avropa İnsan Hüquqları Məhkəməsi Məmmədovun həbsi ilə bağlı şikayət üzrə qərarını elan edib. Avropa Məhkəməsi İlqar Məmmədovun işində Avropa İnsan Haqları Konvensiyanın 5.1 və 5.4 maddəsi (azadlıq hüququ), 6.2 (təqsirsizlik prezumpsiyası) və 18-ci (hüquqlarla bağlı məhdudiyyətlərdən istifadənin hədləri) maddələrinin pozulmasını tanıyıb. Hökumət İ.Məmmədova eyni zamanda 22 000 avro kompensasiya ödəməlidir.

YENİ MÜSAVAT
N 42 (6070) 25 fevral 2015

**Fevralın 20-də hakim Aqşin Əfəndiyevin sədrliyi ilə Yasamal Rayon Məhkəməsində ötən ilin sentyabr ayında baş vermiş avtomobil qəzası hadisəsi ilə bağlı işə baxılıb və Milli Şuranın sədri Cəmil Həsənlinin qızı Günel Həsənliyə hökm oxunub. Heç bir tutarlı hüquqi əsas göstərmədən məhkəmə Günel Həsənlinin 1 il 6 ay müddətinə azadlığının məhdudlaşdırılması ilə bağlı qərar verib.**

# Cəmil Həsənlinin qızı necə cəza çəkəcək?

## Məntəqə tipli həbsxanada saxlanmış Nigar Yaqublu oradakı şəraitdən və məhkumların imtiyazlarından danışdı

G.Həsənli məntəqə tipli həbsxanada cəza çəkməyə məhkum edilib. Məsələ burasındadır ki, bu iş üzrə şikayətçi yoxdur və cinayət işi hüquq-mühafizə orqanlarının təşəbbüsü ilə fakt üzrə qaldırılıb. C.Həsənli bu qərarı özünün siyasi mövqeyi ilə əlaqələndirib.

Müsavat başqanının müavini, vəkil Osman Kazımov isə hesab edir ki, zərərçəkmiş şikayətçi olmadığı halda bu cəzanın verilməsi məhkəməyə hörmət gətirmir. Onun sözlərinə görə, ehtiyatsızlıqdan qəza törədildikdə bu cür ağır cəza olmur.

O.Kazımovun fikrincə, siyasi məsələlərə görə atadan övladı ilə qisas almaq düzgün deyil. O, məntəqə tipli həbsxanada olduğu ərazidən kənara çıxa bilməz: "Xüsusi hallarda bir neçə günlüyə məntəqə rəhbərliyi icazə verə bilər".

**Müsavat Partiyasının Məclis üzvü Nigar Yaqublu da məntəqə tipli həbsxanada olub. Onun sözlərinə görə, qanunla məhkum balaca bir qəsəbədə saxlanmalıdır. Azərbaycanda isə bu sistem mövcud deyil. N.Yaqublu deyir ki, onun işi siyasi məsələ olduğu üçün hər gün qol çəkməyə gedib:** "Qanunla saat 12-dən sonra ərazidən çıxmaq olmaz. Orada inzibati otaqlar var. İslah etmək üçün dustaqları karyerə də aparırlar. İşə getmək imkanı da var. Ailəsinə baş çəkmək üçün üç günlük icazə verilir. Ancaq başqaları qeyri-rəsmi şəkildə məsələni həll edirdi. 100 manat verirdilər və ayda bir dəfə gedib qol çəkirdilər".


Günel Həsənli

Onu da deyək ki, Cəzaların İcrası Məcəlləsinin 118-ci maddəsinə görə, məntəqə tipli cəzaçəkmə müəssisələrində ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə beş ildən artıq olmayan müddətə azadlıqdan məhrumetmə növündə cəzaya məhkum olunmuş şəxslər və ümumi rejimli cəzaçəkmə müəssisələrindən keçirilmiş şəxslər cəza çəkirlər.

Ümumi rejimli cəzaçəkmə müəssisələrindən keçirilmiş ağır və ya az ağır cinayətlərə görə azadlıqdan məhrumetmə növündə cəzaya məhkum olunmuş şəxslər məntəqə tipli cəzaçəkmə müəssisələrində digər məhkumlardan ayrı saxlanılırlar. Kişi və qadın məhkumlar eyni məntəqə tipli cəzaçəkmə müəssisələrində saxlanıla bilərlər. Məntəqə tipli cəzaçəkmə müəssisələrində cəzanın icrası şərtlərinə gəlincə, məhkumlar:

- mühafizəsiz, lakin nəzarət altında saxlanılırlar;
- müəyyən edilmiş nümunəli şəxsiyyəti təsdiq edən sənəd daşıyırlar;
- yuxudan durmaq vaxtından yatmaq vaxtınadək müəssisədə sərbəst hərəkət edə bilərlər;
- məhdudiyyət qoyulmadan qohumları ilə və başqa şəxslərlə yazışa və görüşə bilər, bağlama, sovqat və ya banderol ala bilərlər;
- cəzaçəkmə müəssisəsində gündə bir dəfə müddəti on beş dəqiqə olmaqla telefonla danışa bilərlər;
- məişətdə istifadə edilən ümumi paltar geyinə, pul və qiymətli şeylər gəzdirə, puldan qeyri-məhdud istifadə edə bilərlər.

Cəzaçəkmə müəssisəsindən kənarda müəssisəyə yaxın ərazidə işə düzələn və ya ali, orta ixtisas, ilk peşə-ixtisas təhsili müəssisələrində təhsil alan məhkumlar cəzaçəkmə müəssisəsinin müdiriyyətinin icazəsi ilə sutkada on iki saatdan artıq olmayan müddətdə müəssisədən kənarda, lakin Azərbaycan Respublikasının ərazisi hüdudlarında nəzarətsiz hərəkət edə bilərlər.

Bu halda müəssisənin müdiriyyəti tərəfindən qəbul edilən qərarda hər bir məhkum üçün fərdi şəkildə tərtib olunan cəzaçəkmə müəssisəsindən çıxma və cəzaçəkmə müəssisəsinə qayıtma qrafiki müəyyən edilir.

❑ E.SALAMOĞLU



# Rəsul Cəfərovun məhkəməsində ziddiyyətli ifadələr

## Prosesdə zərərçəkmişlər və şahidlərin ifadələrində maraqlı məqamlar üzə çıxdı

**Fevralın 24-də Bakı Ağır Cinayətlər Məhkəməsində İnsan Haqları Klubunun sədri Rəsul Cəfərovun növbəti məhkəmə prosesi keçirildi. Hakim Eldar İsmayılovun sədrliyi ilə keçirilən proses zərərçəkmiş Cahangir Əhmədovun ifadələri ilə davam etdi: "Rəsul Cəfərovu yaxından tanımıram. Sadəcə, mənzilimi ona kirayə vermişəm. Amma mənimlə müqavilə Elnur Məmmədlinin sədri olduğu "Könüllülərin Beynəlxalq Əməkdaşlığı" İctimai Birliyinin adı ilə bağlanıb. Mənzilimdə 8 ay qalıblar. Günay İsmayılova da mənzilimdə kirayədə qalırdı. Verilən məbləği həyat yoldaşım Cəfərova Nüşabə götürürdü. Heç bir ziyan çəkməmişəm".**

Ardınca zərərçəkmişin 3 dekabr 2014-cü il tarixində istintaqda verdiyi ifadə elan olundu. Cahangir Əhmədovun məhkəməyə verdiyi ifadədə ziddiyyətli məqamlar ortaya çıxdı. Məlum oldu ki, zərərçəkmiş istintaqda verdiyi ifadə zamanı ziyan çəkdiyini və Rəsul Cəfərova ən ağır cəzanın verilməsini tələb edib.

Vəkil Əlibaba Rzayevin "istintaqda qeyd etmisiniz ki, Rəsul Cəfərova ən ağır cəza verilsin. Amma məhkəmədə tamam əksini dediniz. Fikirlərinizi necə izah edərsiniz" sualına zərərçəkmiş cavab verə bilmədi. Yalnız ifadəyə onun adından qol çəkildiyini dedi.

**Digər zərərçəkmiş şəxs İmranlı Nicat ifadəsini yazılı şəkildə məhkəməyə təqdim etdi. O, istintaqdakı ifadələrinin təhrif olunduğunu bildirdi:** "Rəsul bəyi 2003-cü ildən tanıyıram. Hər kəsin qarşısında elan edirəm ki, istintaqda verdiyim ifadələr təhrif olunub. İstintaqda bildirmişdim ki, məni zərərçəkən kimi təqdim etməyin. Məhkəmədə də xahiş edirəm ki, məni zərərçəkən kimi müraciət etməyin. Çünki mən Rəsul Cəfərovdan heç bir zərər görməmişəm. İş axtarırdım, Rəsul bəy mənə iş təklif etdi. Mən də razılaşdım. Ssenari işləri görürdüm. İşə götürülərkən mənimlə müqavilə bağlanıb. Hər şey qanunu şəkildə olub. İndiyə qədər iki dəfə ifadə vermişəm. O zaman bilmişəm ki, fikirlərim təhrif olunub. İfadəmdə göstərilir ki, guya pul almamışam. Yalandır. Mənə heç bir ziyan dəyməyib. Qəbzləri məhkəməyə təqdim edə bilərəm".

**Zərərçəkmişlərdən sonra şahidlərin ifadələri başladı. İlk olaraq, hüquq müdafiəçisi Günay İsmayılova ifadəsini verdi:** "Rəsul Cəfərova bir layihədə 6 ay işləmişəm. Rəsulun işləri çox olduğundan tədbirlərin hazırlanması və digər işlərdə ona kömək edirdim. İşlədiyim layihəni Demokratiyaya Yardım Fondu maliyyələşdirirdi. İyul ayında müqaviləm bitdi. Həmin vaxt atam xəstə olduğundan ev pulunu ödəyə bilmirdim. İkiotaqlı olduğuna görə əlavə adam axtarırdım. Özüm Rəsula bu barədə deyəndə o, ofis axtardığını bildirdi. Otağa baxandan sonra razılaşdı. Ev sahibi Nüşabə Cəfərova ilə danışanda, o da razı oldu. Rəsul bundan sonra oradan ofis kimi istifadə etdi. 155 manat o ödəyirdi, qalan 95 manatı isə mən".

**Daha sonra məhkəmədə şahid qismində iştirak edən, cinayət işi materiallarında ən çox adı keçən təşkilatın- "Könüllülərin Beynəlxalq Əməkdaşlığı" İctimai Birliyinin sədri Elnur Məmmədov ifadə verdi:** "Rəsul Cəfərov təşkilatım qeydiyyatdan keçdiyi üçün mənə müraciət etdi. Layihədə koordinator köməkçisi oldum. Rəsul Cəfərovla birlikdə təmsil olunduğum layihə Açıq Cəmiyyət İnstitutunun Yardım Fondu tərəfindən maliyyələşdirilib. 46 min dollar layihədən pul almışıq. Məbləği hara sərf etməyimiz barədə sənədlər var".



Hakim Eldar İsmayılov Rəsul Cəfərovla bağlı məhkəmə proseslərinin bundan sonra iki həftədən bir yox, hər həftənin cümə axşamları günü keçiriləcəyini elan etdi. Növbəti proses martın 5-də saat 10:30-da şahidlərin ifadələri ilə davam edəcək.

❑ Cavanşir ABBASLI
Foto müəllifindir

# Saxta profillərlə siyasət



Xalid KAZIMLI

**AXCP-dən istefa verən və ondan iki-üç gün sonra ürəyini deşən sözləri "Yeni Müsavat"a danışan Razi Nurullayevin söhbətinin bir hissəsində mən də iştirak etdim.**

Adamın ürəyi dolu idi, danışdıqca danışırdı, onun rəvan təhkiyəsini hərdən suallarla bölməli olurduq.

Əslində Razi bəyin dediklərində bizim üçün yeni şeylər az idi. Biz ölkənin siyasi arenasını da, onun əsas fiqurantlarının xasiyyət, iş, mübarizə üsullarını da, demək olar ki, incəliyinə qədər bilirik.

Bununla belə, mətbəxdən çıxıb gələn şəxslə mətbəxin havasını gendən duyanların təəssüratları eyni deyil. Razi Nurullayev verdiyi müsahibədə və ertəsi gün keçirdiyi brifinqdə bildiklərimizi daha da cilaladı və daha aydın mənzərə yaratdı.

İndi bəziləri deyir ki, o, indiyə qədər niyə susurdu, niyə danışmırdı. Yox, susmurdu, özünə yaxın hesab etdiyi şəxslərə bir çox şeyləri danışırdı, sadəcə, ictimailəşdirmirdi, müsahibə vermirdi. İndi isə zərbə alıb və danışmağa məcbur olub.

Bir daha sübut olunur ki, ölkədəki aparıcı partiyaların daxilində yaradılmış atmosfer ideal deyil, hamısında problemlər var.

Hazırda müxalifət partiyalarının içindəki ziddiyyətləri qabardan hakimiyyət təbliğatçıları YAP-ın daxilindəki totalitar Çin modelini müdafiə etmək qüdrətində, bu barədə nəsə demək imkanında deyillər.

Ölkənin ən totalitar, avtoritar rejimə malik partiyası məhz YAP-dır. Bu partiyada heç kəsin adi söz demək, mübahisə etmək haqqı yoxdur, heç kim özündən yuxarıdakı pillədə duranın sözünü çevirə bilməz, heç kəs rəsmi kursla uzlaşmayan kəlmə kəsmək iqtidarında deyil, hamı rəhbərliyin iradəsi qarşısında "ləbbeyk" deməlidir.

Ancaq məlum olur ki, bəzi müxalifət partiyalarında da bənzər mühit yaradılıb. İndiyədək rəy plüralizminin, partiyadaxili demokratiyanın hökm sürdüyünü güman etdiyimiz partiyalarda avtoritar idarəçilik bərqərar edilib: partiya sədri hər şeyə nəzarət edir, hər kəs onun göstərişlərinin qeyd-şərtsiz icraçısıdır, seçkili orqanlara sədrin barmaq tuşladığı funksionerlər seçilməlidir və sair və ilaxır.

Nurullayevin söhbətindən belə anlaşıldı ki, onun keçmiş partiyasında hətta sosial şəbəkə üzvü olan partiyadaşların fəaliyyətinə belə total nəzarət var: hamı bir-birini izləyir, kim kiminlə virtual dostluqdadır, kim kimin qeyd və şərhlərini bəyənir və s.

Bəlkə də hesab edirlər ki, belə olmalıdır, başqa çıxış yolu yoxdur. Amma bu, siyasi partiya mühiti deyil, daha çox dini sektalara və mafioz təşkilatlara xas strukturlaşma, idarəetmə üsuludur.

Fikir verin, bir adam bir partiyaya üzv olur, 7-8, bəzən 15-20 il can-başla çalışır, məhrumiyyətlərə dözür, təqib-təzyiqlərə məruz qalır, sıxıntılar çəkir, xidmətinin beş qəpik qiyməti olmur, amma elə ki, adam yolunu ayırmaq istədi, yaxud partiyanın kursu ilə üst-üstə düşməyən bir söz dedi, dərhal belinə xain, satqın damğası vurulur. İllərlə çörək kəsdiyi, yol getdiyi silahdaşları onların bütün əziyyətinin üstündən xətt çəkir, düşmən gözündə görür, şəxsiyyətini təhqir edir, ləkələməyə çalışırlar.

Son illərdə onlarla, yüzlərlə siyasi fəal, partiya funksioneri bu "dəyirman"dan keçib, cəmiyyətə "üstü unlu" buraxılıblar.

Bu üzdəndir ki, nə qədər funksioner, siyasi fəal öz partiyasından səssiz-səmirsiz ayrılır, bəyanat vermədən, öz addımını ictimailəşdirmədən bir küncə çəkilir, passivləşir, sıradan çıxır. Əksəriyyət söyülməkdən, xain adlandırılmaqdan, mənəvi-psixoloji terrora məruz qalmaqdan qorxur.

Bu üsullarla ölkədə nə demokratik mühit yaratmaq olar, nə siyasi uğur qazanmaq. Onsuz da siyasi baxımdan passiv olan ölkə ictimaiyyəti bu cür siyasi təşkilatların daxilini görür və bir az da məsafəli davranır, ona qoşulmaq istəmir.

Nurullayevin açıb dediyi "saxta profillər" məsələsi isə heç bir dəftərə-kitaba sığan deyil. Yəni yalnız virtual müstəvidə şiddətlənən siyasi mübarizə ilə, bu cür fəaliyyətlə uğur qazanmaq, ona ümid etmək mümkündürmü?

Belə görünür, yeni təşkilatlanmaya, yeni qüvvələrə ehtiyac var.

YENİ MÜSAVAT

N 42 (6070) 25 fevral 2015

**Bir neçə gün öncə AXCP-də sədr müavinliyindən çıxarılan Razi Nurullayev "Yeni Müsavat"ın qonağı olub. 6 ilə yaxın fəaliyyət göstərdiyi partiyanın rəhbər orqanından çıxarılma səbəblərindən, eləcə də AXCP daxilindəki bir sıra proseslərdən danışan R.Nurullayev xeyli diqqətçəkən açıqlamalar verib. Həmin müsahibənin ikinci hissəsini təqdim edirik.**



# "Əli Kərimli məni şantaj etdi..."

## Razi Nurullayev: "Mənə tənqid, təhqir yağdıranlar Əli Kərimlinin toruna düşmüş adamlardır"

*(əvvəli ötən sayımızda)*

***- Bu gerçəkdirmi?***

- Əlbəttə. Hər bir kəlmə Əli Kərimlinin senzurasından keçir. Mən onların adını çəkmək istəmirəm. Yadınıza gəlirsə, 2013-cü ilin yayında Əli Kərimliyə Əbülfəz Elçibəyin zəhərlənməsi ilə bağlı böhtan atıldı. Mən Əli bəyi müdafiə etdim, çünki səmimi şəkildə inanıram ki, Elçibəyi Əli Kərimli zəhərləməyib. Yenə məsələ gündəmə gəlsə, onu müdafiə edərəm. O zaman "Azadlıq" Əli bəyin göstərişi ilə müdafiə üçün kampaniya başlatdı. Ancaq bir çox adamlar vardı ki, həmin hadisəyə qədər "Azadlıq" onlara heç vaxt yer ayırmırdı. Buna baxmayaraq, onlar Əli Kərimlini müdafiə etdilər. Aralarında 2 partiya sədri də vardı. Zəng edib dedilər ki, illərdi qəzet bizə qapılarını bağlayıb, ancaq indi sədrə lazımdı deyə açır, biz özümüzü istifadə olunmuş hiss edirik. Yəni hər kəs bu durumun fərqindəydi.

***- Natiq Ədilov sizi "ruhunu şeytana satmış" adlandırıb. Onu yaxından tanıyırsızmı, münasibətləriniz yaxın zamanlara qədər necə olub? Partiyasının sədr müavini olmuş birisinə belə sözləri necə deyir?***

- Partiyada Əli Kərimlidən başqa heç kimin nə adını çəkirəm, nə də kimisə tənqid edirəm, nə də edəcəm. Mənim mübarizəm Əli Kərimli ilədir. Mənə tənqid, təhqir yağdıranlar Əli Kərimlinin toruna düşmüş adamlardır. Natiq Ədilovu da cəmiyyət tanıyır. O mənim qohumumdu. Elə qohum olmamış olsun.

***- Sizin cəbhəçilərə müraciətiniz olmuşdu. Bu münasibət ondanmı qaynaqlanır?***

- Şübhəsiz.

***- Siz cəbhəçilərə müraciətinizdə marka mağazalardan bazarlıq edə bilməyən, qəpiyə möhtac olan insanlar haqqında acınacaqlı bir mənzərə çəkmisiz. Marka mağazalardan bazarlıq etmək nə deməkdir? Sədrin həyat tərzidirmi bu? Ümumiyyətlə o, necə yaşayır?***

- Mən sədrin həyat tərzini bilmirəm. Bilsəm də bunu danışmağın tərəfdarı deyiləm. Amma mən dediyim o brend məsələsinə bir aydınlıq gətirmək istəyirəm. Brend mağaza deyəndə mən Anjelina Colinin, Bred Pitin geydiyi markaları nəzərdə tutmamışam. Bu gün 5-10 manata da çox yaxşı markalardan məhsul almaq olur. İstənilən adam şəhərin iri ticarət mərkəzlərində bu durumu müşahidə edir. Ancaq bu cəbhəçilərə o qədər məhrumiyyətlər yaşadılıb, insanlar o qədər əzab çəkib ki, elə düşünürlər 70 faiz endirimdə olan məhsullar da "Sədərək"dəkilərdən, "Binə"dəkilərdən bahadır. İnsanlar bu qədər yıpradılıb, məhrumiyyətlərə düçar edilib.



**"Sədr özü də yaxşı bilir ki, AXCP içərisində ona münasibət dəyişib. Artıq facebook sosial şəbəkəsində gənclər məsələ qoyur ki, Əli Kərimli daha sədrliyə namizədliyini verməməlidir. Sədr bunu hiss edir və daha da aqressivləşib"**

***- O zaman bu insanlar niyə Əli Kərimlinin ərtafındadırlar? İnanırlarmı ki, o, hakimiyyətə gələcək?***

- Doğrudan da düşündürücü bir haldır. Yəqin ki, sədr cəbhəçilərin psixologiyasını bilir, onların istədiyini deyir, onların ruhunu ələ ala bilir. Ancaq son zamanlar bunu əvvəlki rahatlıqla edə də bilmir. Axırıncı görüşümüzdə mən bunu ona dedim. Sədr özü də yaxşı bilir ki, AXCP içərisində ona münasibət dəyişib. Artıq facebook sosial şəbəkəsində gənclər məsələ qoyur ki, Əli Kərimli daha sədrliyə namizədliyini verməməlidir. Sədr bunu hiss edir və daha da aqressivləşib.

***- Sizə Əli Kərimli tərəfindən bazarlıq təklif olundumu?***

- Bəli, mənə bazarlıq təklif olundu. Dedi ki, biz sənin üzərinə gəlmirik, sən də bizim üzərimizə gəlmə, de ki, sağlamlığınla bağlı problemin var, vətəndaş cəmiyyətinə qayıdırsan, müavinlikdən özün istefa verirsən.

***- Bu açıq şantajdır ki...***

- Bəli. Bu təklifləri mənə hörmətlə etsəydi, bəlkə mənim Azərbaycan mentallığım "işə düşə" bilərdi. Düşünərdim ki, ayıbdı, susum, qarşı gəlməyim nə dərəcədə doğru olar? Bir mənada qəlbimlə bacara bilməzdim. Ancaq sədrin məni bu şəkildə şantaj edib aşağılaması mənim xətrimə dəydi. Bildiyim çox şeylər var, mən bunları mərhələ-mərhələ açıqlayacam. Bunu başqa vaxt demək istəyirdim, ancaq indi sizə deyirəm. Qoy Əli bəy bilsin ki, insanların heysiyyətinə toxunmaq olmaz. İnsanların heysiyyətinə toxunan zaman onlara güc vermiş olursan, güclərini birə iki artırırsan, onları aqressivləşdirirsən. Ötən ilin sentyabrında baş verən məlum Batumi hadisələrindən sonra Əli Kərimli ilə Rauf Arifoğlu arasında konflikt yaşanan zaman mən də facebookda bir status yazdım. 120 nəfər statusu bəyəndi, 50-60 da şərh oldu. Rəyasət Heyəti yığışanda orda kimin nə qədər "layk" toplaması müzakirə edildi. Hərə öz fikrini dedi. Həmin toplantıda mənim statusum təqdir ediləndə Əli Kərimli yavaşdan dedi ki, Razi harda bu qədər "laykı" görmüşdü? Bu mənim heysiyyətimə toxundu. Bu günə kimi mən özümə gəlməmişəm. Sonra mən bunu Rəyasət Heyətinin başqa üzvləri ilə də bölüşdüm. Onların bəzisi bu sözləri eşitməmişdi, ancaq biləndə ki, belə bir söz deyilib qeyzləndilər ki, belə münasibətmi olar, bu artıq sondur.

**"Mən bütün karyera imkanlarımı AXCP-də qurban verdim"**

***- Bu nə xəstəlikdir? Əli Kərimli bizim də virtual səhifələrimizi izləməklə məşğuldur. Keçən dəfə dedi ki, yazı paylaşırlar, amma "layk" edənləri azdır... Belə başa düşdüm, AXCP-nin əsas işi elə virtual fəaliyyət üzərində qurulub?***

- Mən buna pis baxmıram. Real həyatda fəaliyyət məhdudlaşdırıldığından sosial şəbəkələrdə çox insanlar var deyə biz buna bilərəkdən getdik. Bu siyasəti mən də dəstəkləmişəm. Ancaq bunu aqressiya səviyyəsinə salmaq, insanların həyatını cəhənnəmə sürüyərək gecəsini-gündüzünü buna sərf etməyə məcbur etmək doğru deyil.

***- Razi bəy, bundan sonra nə edəcəksiz? Deyirsiz ki, Əli Kərimliyə qarşı mübarizə aparacaqsınız. Bunu necə həyata keçirməyi düşünürsüz? Siyasi fəaliyyətinizi necə davam etdirəcəksiniz?***

- Bu gün müxalifətin yenilənməsinin qarşısında sədd çəkən Əli Kərimlidir. Mən buna tam əminəm. Ona görə də siyasətimi bu yöndə aparacam. Nə qərar verəcəyimi mən sabaha (24 fevrala qədər - red.) qədər düşünəcəm. Çalışacam ki, mətbuat konfransına qədər qərar vermiş olum. Bir çox məsələləri dostlarımla məsləhətləşməliyəm. Müxalifət düşərgəsindən olanlarla, kənardakı müstəqil şəxslərlə görüşlərim olur, çoxlu təkliflər almışam. Hətta xaricdə yaşayan azərbaycanlılardan daha çox təkliflər alıram. Fransada yaşayan ABU-nun keçmiş rektoru Elşad Abdullayev də mənə dəstək bəyanatı verib. Mətbuat konfransında açıqlayacağım bir məsələ var. Çox təəssüf ki, indi onu dilə gətirə bilmirəm - mənə basqılar ola bilər. Diplomatik skandal ola biləcək bir məsələdir. Mətbuat konfransının da marağı ondadır. Ancaq sizi əmin edirəm ki, cəsarət edib həmin məsələni danışa bilsəm, böyük bir diplomatik skandal yaşanacaq. Mən bunu etmək istəmirdim. Bu, iki nəfər arasında sirr kimi də qala bilərdi. Amma bu cür aşağılayıcı hərəkətlərdən sonra susa bilmirəm. Mən 6 ilimi AXCP-yə xidmətə sərf etmişəm. İndi mənə atırlar ki, çıx get, Cəbhəyə gəlmisən, sən də populyarlıq qazanmısan. İnsanlara belə qiymət verilərmi? Mən partiyaya gələndə özümü çoxdan təsdiq etmiş bir insan idim. Ailəmin də sürücüsü var idi, özümün də, xarici səfərlərə gedirdim, ailəmi aparırdım, mənim heç bir problemim yox idi, hörmətim də var idi. Mən AXCP-yə gələnə qədər bir neçə ölkənin prezidentləri, xarici işlər nazirləri ilə əlaqələrim var idi. Sərhədlər mənə açıq idi, xarici ölkələrdən çox dəyərli iş təklifləri alırdım. Avropa Şurasında İsveçrədən çox yaxşı tanıdığım bir insan var idi, məni işə dəvət edirdi, deyirdi ki, sənin kimi kadra burda ehtiyac var. Çox böyük tribunalara dəvət edilirdim.

***- Bəs nə oldu?***

- Mən bütün karyera imkanlarımı AXCP-də qurban verdim.

***- Peşmansızmı?***

- İtirdiyim illərə və onun nəticəsizliyinə peşmanam. Çünki mən də müəyyən qədər burada özümü yıpranmış hiss edirəm. İnsanların məndən gözləntiləri çox idi. Düşünürdülər ki, Qərb təfəkkürlü olduğum üçün nəsə yeniliklər edə biləcəm. Ancaq mənim o təfəkkürümü orada məhv elədilər. İmkan vermədilər ki, mən ondan istifadə edim.

***- Əli Kərimli ilə necə ayrıldız? Əl verdiz ayrıldız, siz ona nə dediz? Dedizmi ki, mən bunu belə qoymaram?***

- Susdum. Çünki şok vəziyyətində idim. O dedi ki, biz dost qala bilərik. Mən də dedim ki, sizin şəxsinizlə mənim heç bir problemim yoxdur, ancaq sizin siyasətinizlə barışmamışam, barışmıram və barışmayacam. Sədrə dedim ki, sizin siyasətiniz bütün müxalifəti məhvə aparır.

***- Onun sizinlə söhbəti yazdırmaq ehtimalı var idimi?***

- Deyə bilmərəm. Ancaq əgər varsa, mən çox istəyərdim həmin danışıq açıqlansın.

***- Sizə Cəbhədən kimlərsə qoşula bilər?***

- Söhbət heç bir halda Cəbhəni parçalamaqdan gedə bilməz. Mən bu cür düşünmürəm. Mən hesab edirəm ki, dediklərimin hamısı cəbhəçilərin neçə illər ürəyində saxladıqları və deyə bilmədikləri sözlərdir. Mənə deyirlər ki, niyə telekanallara, qəzetlərə danışırsan. Bəs siz məni "söküb-yığmalısınız", mən susmalıyam? Burdan müraciət edirəm, mətbuat konfransından sonra susa bilərəm. Bir şərtlə - "Azadlıq" qəzeti , "Azərbaycan saatı" mənə meydan versin. Əgər Əli Kərimli söz azadlığı, media azadlığı istəyirsə, birinci özü bunu eləməlidir.

**Redaksiyadan:** *Bu müsahibədən sonra Razi Nurullayev geniş mətbuat konfransı keçirib. Həmin konfransdan hazırlanan material müsavat.com saytında və "Yeni Müsavat" qəzetində ayrıca yazı kimi dərc olunub.*

❑ **Hazırladı Aygün MURADXANLI**

**"Dediklərimin hamısı cəbhəçilərin neçə illər ürəyində saxladıqları və deyə bilmədikləri sözlərdir"**



# Paralel dünyanın adamları

Zamin HACI
zaminhaci@gmail.com

**Latın Amerikası diktaturaları haqda çoxlu romanlar var, həmin əsərlərdə rejimlərin çıxardığı əcaib-qəraib oyunlardan bəhs olunur. Özəlliklə, kim Markesin "Patriarxın payızı" əsərini oxuyubsa, nə dediyimi anlayacaqdır. İndi bizdə də təxminən bənzər durumdur, özü də roman şəklində yox, real həyatda belədir.**

Misal üçün, dünən mən AzTV-nin bir reportajını internetdə izlədim. Qara paltarlı, kostyumlu kişi və arvadları dükanlarda, bankların qabağında danışdırırdılar, hər biri də dövlət başçısına minnətdarlıq edirdi, deyirdilər qiymət artımı olmayıb, heç panika lazım deyil və sairə. Hətta bir qız xeylağı belə ifadə işlətdi: "Yalandan deyirlər guya dollar bahalaşıb".

Təsəvvür edin. AzTV hətta Mərkəzi Bankın kursunu da şübhə altına alır. Eyni küt sifətlə Yerin fırlanmadığını iddia eləmək olar, necə ki, bundan cəmi bir həftə qabaq AMEA üzvləri, o cümlədən populyar mollalardan biri eləmişdi.

Bəlkə də onlar hamısı bir yerdə, cəm halında haqlıdırlar. Sadəcə, bizim yaşadığımız məkanlar fərqlidir. Biz 3 ölçülü fəzada yaşayırıq, onlar "qara dəlikdə". Bizim iki gözümüz var, onların isə hər yeri gözdür. Biz ancaq ağ-qara rəngləri görürük, onlar baxdıqları hər yerdə spektr analizi aparırlar. Biz elmə inanırıq, onlar cinlərə inanırlar. Yoxsa niyə AzTV-yə intervü verən hər kəs sanki içinə cin girmişə oxşayır? Daim yerlərində qurcuxurlar, havadakı donmuş abstrakt nöqtəyə baxırlar, bəzən ağız-burunlarından köpük daşır, bəzən kameranı gəmirməyə çalışırlar...

Bəlkə də onlar xarici turistlərdir. Mədəniyyət və Turizm Nazirliyinin şefi Həzrət Əbülfəs ağa (*müqəddəsdir hamısı, əbədi və daimidir*) deyəndə ki, Azərbaycana 1 milyard turist gəlib - inanmırdıq. Budur, həmin turistlər xoşbəxt yaşadıqları haqda kameralara qırıldadırlar, dünyada belə ölkə görmədiklərini söyləyirlər, dükandan ət alırlar, intervü verirlər, seçkilərə gedirlər...

Ancaq sadə zəhmətkeşləri, AzTV cəngəlliyinin "sakinlərini" bir qırağa qoyaq, nirvana vəziyyətinə çatmışlar arasında vəzifəli şəxslər də var. Örnək üçün, dünən deputatxana spikeri Oqtay Əsədov deyirdi: "Nəzərə alsaq ki, Azərbaycan müharibə vəziyyətindədir, bu məsələdə xüsusi ajiotaj yaratmağa ehtiyac yoxdur. Amma o da doğrudur ki, bəzi mağaza, supermarket sahibləri süni qiymət artımı yaratmağa çalışır. Bu, yolverilməzdir. Çünki satılan məhsulların 70 faizi ölkədə istehsal olunur". Sitatın sonu.

Bəlkə də Oqtay müəllim Azərbaycanda satılan məhsulların 70 faizinin daxili istehsal olmasını səmimi şəkildə fikirləşir. Bəlkə də fil qulağında yatıb. Hər halda, mindiyi "Mercedes"in, geydiyi kostyumun, yediyi yağın, baxdığı televizorun, nə bilim, yalan danışdığı mikrofonun Azərbaycanda istehsal edilmədiyini bilməlidir. Ölkə sənaye mallarının, ərzaq məhsullarının azı 90 faizini xaricdən alır, guya deputatxana spikeri bunu bilmir? Hətta "yerli istehsal" adıyla bizə sırınanların da çoxu xammal şəklində xaricdən gəlir, burda qablaşdırma edilir. Bitki yağlarından, çay və şəkərdən tutmuş, Vasif xanın "drandulet"lərinə qədər. Bunların hamısı xaricdən gəldiyi üçün almağa dollar lazımdır. Dolların kursu qalxdığından, bazarda bahalaşma qaçılmazdır, hazırda da proses yüksək sürətlə, necə deyərlər, "analoqu olmayan şəkildə" gedir.

Spikerin müharibə vəziyyətində olmağımız haqda fikirləri də populizmdir, nağıldır. Hazırda biz müharibə vəziyyətində yox, Avropa oyunları vəziyyətində yaşayırıq. Hər şey o oyunlara uyğunlaşdırılır. Polis bəyanat verib ki, oyunlar zamanı Bakıda evlənmək, ölmək qadağandır. Xaricdən gələn idmançılar küçədə tıxaca düşərmiş.

İnsafən, toylara nisbətdə yaslara bir az icazə veriblər, deyirlər xeyir-şər evlərində ölmək olar, küçədə isə yox. Buna da şükür. Əsl demokratiyadır. Bu gedişlə biz Qarabağı da alarıq.




# Müxalifətdən "Praqada inqilabçılar hazırlanacaq" xəbərinə reaksiya

## Elxan Şahinoğlu: "İnqilab sözündən artıq çox qorxuram"

**Çexiyanın paytaxtı Praqada Azərbaycan da daxil olmaqla, bəzi keçmiş sovet respublikalarından olan vətəndaş cəmiyyəti fəallarına hazırlıq keçmək üçün xüsusi mərkəz fəaliyyətə başlayıb. Bu barədə virtualaz.org saytı "Röyter"ə istinadən xəbər yayıb. Xəbərdə deyilir ki, Beynəlxalq Vətəndaş Cəmiyyəti Mərkəzi bu ölkələrdə "hakimiyyətlərin təzyiqləri ilə üzləşmiş vətəndaş cəmiyyəti fəallarına" dəstək vermək üçün yaradılır.**

Mərkəzdə Rusiya, Ukrayna, Belarus, Moldova, Gürcüstan, Ermənistan, Azərbaycan və Mərkəzi Asiya respublikalarından olan iştirakçılar üçün treninq və seminarlar keçiriləcək.

Mərkəzin direktoru Rostislav Valvoda deyib ki, bu təşkilatın yaradılması zəruridir, çünki regionda xüsusən bəzi ölkələrdə artan təzyiqlə üzləşməsinə baxmayaraq vətəndaş cəmiyyəti böyük potensiala malikdir.

Məlumatda sonra deyilir ki, bu qurum Çexiyanın "People in Need" ("İnsanlar darda") təşkilatı tərəfindən yaradılır. Onun fəaliyyətini isə ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi USAİD, iki özəl Amerika fondu, habelə İsveç və Çexiya hökumətləri maliyyələşdirəcək.

Qeyd edək ki, "People in Need" təşkilatı Azərbaycan hakimiyyətinə qarşı Avropa paytaxtlarında aksiyalar təşkil etməsi və geniş anti-Azərbaycan fəaliyyəti ilə tanınır. Bir neçə ay əvvəl təşkilatın erməniləre yaxınlığı məsələsi ətrafında qalmaqal yaranmışdı.

Rostislav Valvoda deyib ki, mərkəzin missiyası keçmiş sovet respublikalarında hakimiyyətlərin qanunlara, insan haqlarına, tolerantlığa və ləyaqətə münasibətdə "daha açıq cəmiyyət" yaratmağa kömək etməkdir. Bununla belə, mərkəz bildirir ki, onun əməkdaşları həmin ölkələrdə QHT-lərə, habelə bloggerlərə, jurnalistlərə, təhqiqatçılara və müstəqil rejissorlara, rəssamlara, vətəndaşlara kömək etmək üçün ənənəvi və innovativ metodların toplusundan istifadə edəcək. Mərkəz kiçik qrantlar verəcək, seminarlar və online seminarlar keçirəcək. Bu zaman Praqa universitetlərindən biri ilə əməkdaşlıq ediləcək, "keçid araşdırmaları" üzrə magistr dərəcəsi hazırlanacaq.

Bəzi ekspertlər və məlumatı yayan sayt Çexiyada açılan bu mərkəzi Azərbaycan inqilabçılarına Praqada təlim keçəcək mərkəz kimi xarakterizə ediblər.

Qeyd edək ki, hazırda Çexiyada Azərbaycandan olan ictimai-siyasi fəallar, bir sıra QHT-çilər yaşayır. Onların əksəriyyəti Azərbaycan hakimiyyətinə kəskin münasibəti ilə fərqlənirlər.

Azərbaycanın tanınmış müxalifət partiyalarının üzvlərindən bu ölkədə və sözügedən mərkəzdə fəaliyyət göstərənlərin olub-olmadığını araşdırdıq.

**Müsavat Partiyası başqanının müavini Gülağa Aslanlı bildirdi ki, Çexiyada Müsavat Partiyasının üzvlərinin olub-olmaması haqda dəqiq məlumatı yoxdur və bunu araşdırmaq lazımdır:** "Belə məlumatlar adətən həqiqəti əks elətdirmir, yaxud da şişirdilir. Əvvəllər də belə xəbərlər yayılırdı ki, guya Avropada, Amerikada Azərbaycanda dəyişikliklər üçün xüsusi dəstələr hazırlanır. Sonradan bu xəbərlərin heç biri təsdiq olunmayıb. Mənə elə gəlir ki, Çexiya söhbəti də həmin silsilədən olan bir söhbətdir. Bunun nə qədər həqiqətə uyğun olub-olmadığını araşdırmağa ehtiyac var".

**KXCP sədri Mirmahmud Mirəlioğlu da bildirdi ki, rəhbərlik etdiyi partiyanın üzvlərindən Çexiyada yaşayanların olub-olmamasından məlumatsızdır:** "KXCP-nin müxtəlif Avropa ölkələrində üzvləri yaşayır. Çexiyada olanların olduğunu xatırlamıram. Ola bilər ki, səfərdə olan üzvlərimiz var. Partiyamızın hansısa üzvlərinin o cür mərkəzlərlə əlaqəsi olsaydı məlumatımız olardı.

İkincisi, o məlumatı Azərbaycanda yayanın etibarlılıq dərəcəsi sıfıra bərabər olduğu üçün hesab edirəm ki, o informasiyaya inanmaq doğru olmazdı".

**Bəs Çexiyada yaradıldığı haqqında xəbər yayılan mərkəz inqilab ixracatçısı kimi ciddiyə alınmalıdırmı?**

**Bu barədə danışan "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirdi ki, inqilab sözündən artıq çox qorxur. Ukraynadakı hadisələri müşahidə edəndən sonra bir daha o qərara gəlib ki, biz özümüz də dəyişiklik istəyiriksə, bu, inqilabla yox, evalisiyon yolla olmalıdır, seçkilər və dialoq yolu ilə olmalıdır. İnqilab yolu Azərbaycanın yolu deyil və uğur gətirməz:** "Azərbaycanda inqilab Ukraynadakından daha pis fəlakətlər gətirə bilər. Ona görə mən xaricdə olan bəzi mərkəzlərin, QHT-lərin Azərbaycan kimi ölkələrdə inqilabi yollarla dəyişiklik edilməsi ssenarilərinə nə inanıram, nə də bunun məqbul olduğunu qəbul edirəm. Mən inanmıram ki, Çexiyada Azərbaycanda inqilab həyata keçirmək üçün hazırlıq getsin. ABŞ kimi superdövlət rəngli inqilabların ssenaristi kimi tanınır, amma o belə, heç də hər şeyi proqnozlaşdıra və itkisiz apara bilmir. Məsələn, Ukraynanı götürsək, heç kimin ağlına gələ bilməzdi ki, inqilabın nəticələri bu qədər ağır olacaq. Krım işğal olunub, Ukraynanın şərqində "ikinci Qarabağ" yaradılıb, ayrıca müharibə gedir, Ukrayna büdcəsi fəlakətli vəziyyətdədir. İnqilabın nəticəsi bu oldu. Halbuki məqsəd korrupsioner Yanukoviç rejimindən xilas olub ölkəni normal vəziyyətə gətirmək idi. Heç olmasa Yanukoviçin dövründə Ukraynanın ərazi bütövlüyü var idi. Bu mənada mən düşünürəm ki, inqilab ssenarilərinə qayıtmaq lazımsızdır.

Digər tərəfdən, əslində Çexiya hökumətinin özü Azərbaycanla əməkdaşlığın inkişafında maraqlıdır. Çexiya istəyir iqtisadi, turizm sahəsində Azərbaycanla yeni əməkdaşlıq telləri yaratsın. İndi Çexiyada QHT-lər səviyyəsində Azərbaycanda inqilab müzakirələri gedirsə, deməli, bu, iki ölkə arasında əməkdaşlığa kölgə sala bilər. Azərbaycan hakimiyyəti belə məsələlərə həssasdır. Baxmayaraq ki, həmin mərkəzin Çexiya hökumətinə heç bir dəxli yoxdur, amma yenə də bu məsələ münasibətlərə mənfi təsir edə bilər".

**Ekspert onu da vurğuladı ki, Azərbaycanda nə dəyişiklik olmalıdırsa, o, ölkənin daxilindən baş verməlidir:** "ABŞ-da dinləmələr, Çexiyada hansısa təşkilatın təlimlər keçməsi kimi məsələlərin təsir gücünə artıq mən inanmıram. Azərbaycan cəmiyyəti istəməlidir ki, ölkədə tədrici islahatlar, dəyişiklik olsun. Ölkə hüdudlarından kənardakı addımlar onsuz da Azərbaycan cəmiyyətini 20 ildir fəallaşdırmır. Azərbaycan cəmiyyətinin özünün demokratik dəyişikliklərə sifarişi olmalıdır. Yalnız bundan sonra dəyişikliklərin şahidi ola bilərik".

❑ **Etibar SEYİDAĞA**

# Parlament sədrindən sensasion açıqlama

**Fevralın 24-də Milli Məclisin növbəti plenar iclası keçirildi. Spiker Oqtay Əsədovun təklifi ilə Xocalı soyqrımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla anıldı. Spiker dedi ki, Xocalı soyqırımı bəşəriyyətdə baş verən faciələrin ən dəhşətlisidir. O.Əsədov Heydər Əliyev Fondunun sədri Leyla Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə dünyada aparılan kampaniyanın yüksək nəticələr verdiyini, bir sıra ölkələrin parlamentlərinin, ABŞ-ın 15 ştatının icra və qanunverici orqanlarının Xocalı soyqırımını tanıdığını bildirdi.**



# Azərbaycan müharibə iqtisadiyyatına keçir - manatın sirri

## Oqtay Əsədov Milli Məclisdə manatın ucuzlaşması ilə bağlı məsələnin müzakirəsində “Müharibə ola bilər, ona görə də bütün ehtiyatları xərcləyə bilmərik” deyib, cəmiyyətə üstüörtülü mesaj verdi; belə görünür ki, hökuməti əhalinin ciddi narahatlığına səbəb olan addıma vadar edən səbəb müharibə ehtimalıdır...

Spiker əlavə etdi ki, Milli Məclisin 20-dən çox deputatı xaricdə keçirilən Xocalı soyqırımı ilə bağlı tədbirlərdə iştirak edirlər. Spiker Xocalı cinayətlərinin cəzasız qalmayacağına əminliyini ifadə etdi.

**Cari məsələlərlə bağlı çıxış edən deputat Elmira Axundova kənd yerlərində elektrik enerjisinin vaxtaşırı kəsilməsindən danışdı. Deputat dedi ki, fevralın 20 və 21-də Masallıda seçicilərlə görüş keçirərkən acınacaqlı vəziyyətin şahidi olub:** “Seçicilər deyir ki, əsas problem transformator və elektrik dirəklərinin, naqillərinin köhnə olmasıdır”. Onun sözlərinə görə, Masallının 100 kəndində elektrik xətləri və dirəkləri 1960-cı illərdən qalıb. E.Axundova dağ rayonlarına qartəmizləyən maşınlar və digər texnikaların alınmasını da təklif etdi.

**Fərəc Quliyev Mərkəzi Bankın manatın kursu ilə bağlı atdığı addımın narazılığa səbəb olduğunu deyib ölkə gündəminin əsas mövzusundan danışdı. Yaranmış vəziyyətdən sui-istifadə hallarının olmasından da bəhs edən F.Quliyev müəyyən tədbirlərin görülməsini zəruri saydı:** “Hökumət antiböhran proqramını işə salmalıdır”. Deputat monopolistlərə “kəmərlərini sıxmağı” tövsiyə etdi. Həmçinin Milli Məclisin müvafiq komitəsində müzakirələr aparmağı faydalı saydı.

**Vitse-spiker Bahar Muradova isə çıxışında Xocalı soyqırımına diqqət cəlb edərək qeyd etdi ki, bu günlər xalqımız üçün ən hüznlü günlərdən biridir. O bildirdi ki, vaxtilə Xocalı hadisələrindən danışarkən hətta daxildə günahkar axtarışına çıxmışdıqsa, artıq erməni faşizminin gerçək mahiyyətini çatdırmaq üçün beynəlxalq miqyasda ciddi işlər aparılır. B.Muradova dedi:** “İş nə yerə çatıb ki, hətta ermənilər açıq şəkildə bəyan edirlər ki, Xocalı hadisəsində günahkar keçmiş prezident Ayaz Mütəllibov və AXC-dir. Bunu onunla izah edirlər ki, Xocalıdan əhalinin çıxması üçün dəhliz yaradılmışdı, ancaq əhali ordan çıxarılmadı, çünki AXC ilə Mütəllibov arasında hakimiyyət mübarizəsi gedirdi. Bu, ondan irəli gəlir ki, bizim bəzi siyasətçilərimiz yaxın hədəfləri uğrunda mübarizə apararkən öz açıqlamalarına diqqət etmirlər. Biz daxildə aparılan mübarizələrdə qurşaqdan aşağı zərbə vurmağa çalışmamalıyıq, çünki bu, sonradan bizim əleyhimizə istifadə olunur”. B.Muradova onu da dedi ki, ermənilərin bu iddialarının cavabı ATƏT-in son toplantısında verilib. Sonda vitse-spiker bir daha deputatları günün əsas müzakirə mövzusu olan Xocalı soyqırımından danışmağa, bütün diqqəti ermənilərə yönəltməyə çağırdı.

**İqbal Ağazadə isə Mərkəzi Bankın 21 fevral tarixli qərarına münasibət bildirəcəyini dedi. O bildirdi ki, Mərkəzi Bank 5 gün əvvəl verdiyi vədə xilaf çıxaraq manatın kursunun saxlanılacağı barədə özünün yaydığı press-relizin əleyhinə qərar qəbul edib:** “Bank əhalini aldadıb və əhaliyə külli miqdarda ziyan vurub. Bu gün nazirliklər "süni qiyməti artırırlar" deyərək supermarketlərin üzərinə gedir. Bir gündə 34 faiz qiyməti artıran qurum başqasını nədə günahlandıra bilər? Necə ola bilər ki, vətəndaşın cibinə bu şəkildə girilir? Bahar xanım deyir ki, bugünlərdə Xocalı məsələsindən bəhs etməliyik. Razıyam. Ancaq bu gün ölkə əhalisini sonsuz dərəcədə narahat edən məhz bu məsələdir. Bu gün banklarda 7 milyard pulu olan əhaliyə 3 milyard ziyan vurulub, kompensasiya verilmir. Bu gün idxal məhsullarının böyük əksəriyyəti ərzaq məhsullarıdır. Bahalaşmaya görə vətəndaşa 34 faiz kompensasiya verilməlidir. İqtisadiyyat və Sənaye Nazirliyinin Antiinhisar Xidməti qiymətlərin spekulyantlar tərəfindən süni şəkildə şişirdildiyini bildirib. Devalvasiya nəticəsində bank əmanətçilərinə 3 mlrd. manat ziyan dəyib. Əhalinin əmanətlərinin ümumi həcmi isə 7,2 mlrd. manat təşkil edir. Tələb edirəm ki, hökumət bütün sahələrdə əhaliyə dəyən zərəri ödəsin".

**Zahid Oruc isə dedi ki, Mərkəzi Bankın qərarını millətimizin mənafeyinə uyğun hesab edir:** “Maksimum bir ay ərzində onlar bankın qərarını bizim kimi müdafiə edəcəklər. Bunu tədricən etmək dollar milyonçularının xeyrinə idi. Mən bu qərarı açıq mətnlə müdafiə edirəm”.

**O.Əsədov isə İ.Ağazadəyə cavab olaraq bildirdi ki, əhalinin banklardakı kreditlərinin 50 faizdən çoxu dollarla deyildi:** “İki ay ərzində vətəndaşlar öz vəsaitlərini konvertasiya etmək imkanları əldə ediblər. Bu müddətdə 4,5 mlrd. dollar konvertasiya edilib”. Spiker onu da dedi ki, qiymətlərin qalxmasına qarşı dövlət tərəfindən tədbirlər görüləcək: “Mənə məlum olduğu kimi, ərzaq məhsullarının 70%-i daxili istehsaldır və qiymət artımı olmamalıdır. İqtisadiyyat və Sənaye Nazirliyi manatın devalvasiyası fonunda qiymətlərin saxlanması planını hazırlayır”.

**Ardınca parlament sədri kifayət qədər sensasion fikirlər söylədi. Spiker açıq şəkildə bildirdi ki, manatla bağlı qərar Azərbaycanın müharibə şəraitində olması ilə əlaqədar verilib.** “Hökumət manatın məzənnəsini bacardığı qədər saxladı. Lakin Azərbaycan Ermənistanla müharibə şəraitindədir, aktiv hərbi əməliyyatların və digər hərəkətlərin başlana bilməsi imkanlarını istisna etmir. Bundan ötrü isə əlavə vəsait lazımdır. Müharibə vəziyyətində olan ölkəyik, hər şey ola bilər, müharibə də. Ona görə də bütün ehtiyatları xərcləyə bilmərik. Bu məsələlərdən açıq danışmaq istəmirəm. Gələcəyi də düşünmək lazımdır, bu gün bütün ehtiyatları dağıda bilmərik” deyə, O.Əsədov vurğuladı.

Yeri gəlmişkən, bir müddət öncə “Yeni Müsavat” müdafiə naziri Zakir Həsənovun vaxtaşırı cəbhə xəttində olmasına, davamlı hərbi təlimlərə diqqət çəkərək Azərbaycanın ciddi müharibə hazırlıqlarına başlaması barədə manşet yazısı dərc etmişdi. Hesab olunur ki, Azərbaycan, sadəcə, müharibəyə təhrik edilir və Ermənistanın son zamanlar təxribat-diversiya addımları da buna hesablanıb. Bu mənada müşahidəçilər Qarabağda hər an böyük savaşın başlayacağı barədə proqnozlar irəli sürür. O.Əsədovun da bu sözlərlə manatla bağlı addımın sirrini açmış oldu. Belə görünür ki, hökumət əhalinin ciddi narahatlığına səbəb olan addıma, sadəcə, məcburiyyətdən gedib və buna vadar edən səbəb də ciddi müharibə ehtimalıdır. Məlumatlara görə, manatın kursunda edilmiş dəyişiklik nəticəsində Azərbaycan dövləti 4 milyard manat əlavə gəlir əldə edib ki, bu da hərbi büdcə qədər vəsait deməkdir. Eyni zamanda bu məbləğ Ermənistanın dövlət büdcəsindən də xeyli çoxdur.

****

**Daha sonra iclasda çıxış edən deputat Siyavuş Novruzov hökumətin xalqın maraqları naminə addımlar atacağını dedi:** “Burada dərhal bəyanat verməyə ehtiyac yoxdur, hökumət bunu hesablayır və təqdim edəcək. Hökumətin Milli Məclisdə hesabatı olacaq. O zaman biz görəcəyik ki, hansı addımlar atılıb. Populizmdən də kimlərsə nəsə qazanmaq istəyirsə, mənasız bir şeydir. Hesab edirəm ki, real iqtisadi faktorlara əsaslanıb, məsələni həll etmək hökumətin borcudur. Xalqın maraqlarını qorumaq bu hökumətin çiynindədir. O baxımdan da hökumət öz addımlarını atacaq”.

**Fazil Mustafa Xocalı ilə bağlı görülən işlərin effektinin olduğunu dedi. Deputat bildirdi ki, Xocalı ilə bağlı beynəlxalq aləmdə qərarların qəbuluna çalışmaq lazımdır. F.Mustafa da manatın devalvasiyasından danışdı:** “Əhalinin aztəminatlı hissəsi üçün hökumət tərəfindən addımlar atılmalıdır. Təqaüdçülər, həkimlər, müəllimlər, hərbçilərlə bağlı qərarlar verilməlidir ki, daha ciddi problemlər yaranmasın”.

**Vahid Əhmədov əvvəlcə bəzi deputatları bilmədiyi mövzulardan danışmaqda qınadı və Mərkəzi Bankın rəhbərliyini sərt ittiham etdi. Dedi ki, manatın devalvasiyası lazım və labüd idi:** “Amma milli valyutanın devalvasiyası yumşaq şəkildə həyata keçirilməli idi. Mən dəfələrlə Mərkəzi Bankla əlaqə saxlamışam, son iki gün əvvələ qədər deyiblər ki, manatın kursu ciddi şəkildə dəyişməyəcək. Çox təəssüf ki, Mərkəzi Bank öz sözünün üstündə dayanmadı. Bu, ciddi prosesdir, insanlara öz təsirini göstərəcək. Bölgələrdə artıq unun, şəkər tozunun qiymətində süni qiymət artımları müşahidə olunur. Hökumət bunun qarşısını almalıdır. Həmçinin əhalinin banklardan götürdüyü kreditlərlə bağlı hökumət addımlar atmalıdır. Sahibkarlar dollarla böyük məbləğdə kreditlər götürüb, onların qaytarılmasında problemlər yarana bilər. Həmçinin Vergilər, İqtisadi İnkişaf nazirlikləri süni qiymət artımlarına qarşı mübarizə aparmalıdır”. V.Əhmədov qeyd etdi ki, devalvasiyaya 2014-cü ildən başlanılsaydı, biz bu günə düşməzdik: “Bu, Mərkəzi Bankın birbaşa səhvidir, Mərkəzi Bank buna cavabdehdir”.

**İqtisadi siyasət komitəsinin sədri Ziyad Səmədzadə isə söz alıb dedi ki, neftin qiymətin aşağı düşməsi gərgin situasiya yaradıb. Büdcədə neftin qiyməti 90 dollar götürülüb, ancaq bu gün neftin qiyməti 60 dollardır**: "Bu şəkildə ilin sonuna qədər davam edərsə, Azərbaycan dövlətinin büdcəsinin kəsiri 6-7 milyard dollar olacaq. Manatın sabit qalması üçün dövlət hər ay 2,4 milyard itirirdi. Bu da Ermənistanın büdcəsi qədərdir". Z.Səmədzadə də hökuməti ciddi tədbirlərə çağırdı: “Mən əminəm ki, Azərbaycan hökuməti və xalqı bu çətinlikdən də çıxacaq”.

**O.Əsədov məsələnin neftlə əlaqələndirilməsini düzgün saymadı. Nefti olmayan İsveçrə və Danimarkanın da milli valyuta ilə bağlı çətinliklə üzləşdiyini dedi:** “Mən İqtisadi İnkişaf Nazirliyi ilə də danışdım. Əminəm ki, ərzaqların qiymətinin artmasına imkan verilməyəcək”.

**Deputat Qüdrət Həsənquliyev isə ərzaq məhsullarının qiymətinin artıq qalxdığını dedi və təklif verdi:** “Ünvanlı sosial yardım alanların müavinəti 35 faiz artmalıdır. Nəzərə alaq ki, bu təbəqə əhalinin az dolanışığı olan təbəqəsidir. Eyni zamanda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi düşünməlidir ki, necə etmək lazımdır ki, sosial yardım alanların sayı azalsın. İnsanlar ələ baxımlı olmasınlar. İşlə təmin edilsinlər, halal zəhməti ilə dolansınlar. Büdcədən bu xərclər azaldılsın”.

“Ünvanlı dövlət sosial yardımı haqqında” Qanuna dəyişikliklər haqqında məlumat verən komitə sədri Hadi Rəcəbli bildirdi ki, təkilf olunan dəyişikliyə əsasən Azərbaycanda ünvanlı dövlət sosial yardımını müddəti 1 ildən 2 ilə qədər uzadılır. “Əgər vətəndaşlar əvvəllər 6 ay, sonralar isə 1 il müddətinə bu hüquqdan yararlanırdılarsa, indi yenidən heç bir sənəd düzəltmədən 2 il bu hüquqdan istifadə imkanı əldə etmiş olacaqlar”.

“Bugünlərdə dollar və manatın dəyərində fərqlərin yaranması ilə bağlı bir sıra iş adamları yaranan vəziyyətdən sui-istifadə edib pul qazanmaq istəyirlər”. Bunu isə deputat Fəzail Ağamalı bildirdi. Onun sözlərinə görə, əhali eyni ajiotajla adətən bayram ərəfələrində də qarşılaşır, çünki ölkədə süni qiymət artımları baş verir. Deputat bununla əlaqədar olaraq sərt tədbirlərə əl atılmasını vacib saydı: “Azərbaycanda süni qiymət artımlarının qarşısını almaq üçün İnzibati Xətalar Məcəlləsinə əlavə və dəyişikliklər edilməlidir”.

Daha sonra deputatlar gündəlikdəki bir sıra qanun layihələrinə əlavə və dəyişikliklər etdilər, həmçinin "Elm haqqında" Qanun layihəsi ilk oxunuşda müzakirəyə çıxarıldı.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 42 (6070) 25 fevral 2015

**...O, 17 ildir ki, həbsxanada cəza çəkir. 10 ildir ki, 8 saylı xüsusi rejimli cəzaçəkmə müəssisəsində “odinoçka” - yəni təkadamlıq kamerada saxlanılır. Bu cəzaçəkmə müəssisəsi təkrar cinayət törədən şəxslər - residivistlər üçün nəzərdə tutulub. Amma o, residivist deyil... Onu Azərbaycanın ən titullu “qanuni oğru”su kimi qəbul edənlər də var, onun titulunu tanımayanlar da. Onun haqqında müxtəlif əfsanələr dolaşır: gah azadlıqdakı böyük bir mütəşəkkil dəstəni həbsxanadan yönləndirdiyi deyilir, gah “zon”da narkotikə qadağa qoyduğu, gah da kimisə cəzalandırmaq barədə sifariş verdiyi...**



# “Mən Azərbaycanda yeganə "qanuni oğru"yam ki...”

## “Quli” ləqəbli Nadir Səlifov: kimin nə söyləməsindən asılı olmayaraq, o, kriminal aləmə adını yazdırmış əfsanədir...

Hətta opponentləri arasında onun kamerada “srok” yox, kef çəkdiyini deyənlər də var. Bu “kef” məsələsi 2005-ci ildə hətta çox qalmaqallı məhkəmə predmeti belə olub ki, buna hələ qayıdacağıq... Amma təkzibedilməz bir həqiqət də var: kimin nə söyləməsindən asılı olmayaraq, o, kriminal aləmə adını yazdırmış əfsanədir. Söhbət Nadir Səlifovdan, yəni “Lotu Quli”dən gedir...

Onun haqqında xüsusi yazmağımızın heç bir özəl səbəbi yoxdur. Mətbuat son illər iki azərbaycanlı avtoritetin - Rövşən Canıyevlə *(“Lənkəranski”)* “Quli”nin mübarizəsindən, daha doğrusu, müharibəsindən yazır. Azərbaycan mətbuatına bu mövzular Rusiya mediasından “ekstradisiya” olunur. Bu da səbəbsiz deyil. Azərbaycan kriminalları daha çox sərhədin o tayında dostlaşır, dalaşır, vuruşurlar..."Lotu Quli" sərhədin bu tərəfində, daha dəqiqi, Azərbaycanın türmə divarları arasındadır illərdir... “Qanuni oğru” “Rövşən Lənkəranski” də məhbus həyatı yaşayıb, həm burda, həm sərhədin o tayında. İndi azadlıqda olsa da, həbsi üçün beynəlxalq miqyasda sanksiya var: adı İnterpolun axtarış siyahısındadır... Onun barəsində də növbəti saylarımızda söhbət açacağıq.

***

Məlumatlara görə, “Quli” ilə Azərbaycanın ən titullu “oğrular”ı arasında problem Bayıl təcridxanasında baş vermiş bir hadisədən başlayıb. Belə ki, “Quli” oğru etiketlərinə zidd olaraq “böyük qardaş”- “Sabirabadlı Hikmət” kimi tanınan Hikmət Muxtarova əl qaldırıb. Məhz bu konflikti doğuran səbəblər haqda da müxtəlif versiyalar var. Məsələn, deyilənlərə görə, sonradan çox ağır nəticəsi olan konfliktin kökündə “qanuni oğru”ların Rusiyada biznes obyektlərinə nəzarət uğrunda mübarizəsi dayanırmış. *(Amma daha böyük bir kəsim “Quli” haqda qərar vermiş, indi həyatda olmayan “Sabirabadlı Hikmət”lə “Masallı Mamed”i biznes maraqları ilə deyil, “oğru ideyası” ilə yaşayan “böyük qardaş” hesab edirdilər)*. İllərdir ki, “Quli”ni “oğru” hesab etməyənlər məhz onun “böyük qardaşa” əl qaldırmasını bağışlamırlar.

2009-cu ildə Hikmətin qətlini də “Quli”nin sifarişi hesab edənlər var. “Quli”ni “oğru” hesab etməyənlər bir neçə il əvvəl, hələ “Sabirabadlı Hikmət” sağlığında Moskvada 9 “oğru”nun toplaşdığı “sxodka”da qəbul edilən qərarı əsas gətirirlər. Həmin qərar “Quli”dən “oğru” adının alınması barədə olub. Bu şifahi qərar yazılı formada Azərbaycanın əksər “zon”larına paylanılıb. Bundan sonra kriminal aləmdə azərbaycanlılar arasında parçalanma dərinləşib, tərəflər çoxsaylı itkilər verib ki, öldürülənlər sırasında bir çox “qanuni oğru”lar *(“Sabirabadlı Hikmət”, “Otar”, “Nardaranlı Mirseymur”, “Ağbaş Çingiz” və sair...)* da olub.

“Quli” və tərəfdarları təbii ki, indi də qüvvəsini itirməyən bu qərarı qəbul etmir və onların da öz arqumentləri var. Çünki kriminal aləmdə bu cür mühüm məsələnin müzakirəsində ittiham edilən tərəf, yəni “Quli”nin də iştirak etməsi və “oğru” adının hansı səbəbdən ondan alınması izah olunması və özünü müdafiə etməyə şərait yaradılması vacibdir.

Qarşı tərəf də sıralarında rəhmətlik “Masallı Mamed”in (Məmməd Hüseynov) də olduğu 9 “oğru”nun qərarını indiyədək tanıyır. Onların arqumenti isə bu olub ki, həmin 9 “oğru” kifayət qədər nüfuzlu və təcrübəlidir, ona görə də səhv qərar verməzlər. “Masallı Mamed”, “Sabirabadlı Hikmət” kimi nüfuzlu “oğru”ların iştirak etdiyi həmin “sxodka”nın qərarını indi “Quli” ilə düşmən olan Rövşən Caniyev (“Lənkəranski”) də dəstəkləyib...

****

Nadir Səlifov 1972-ci il avqust ayının 28-də Gürcüstanın Dmanisi rayonunda doğulub. “Quli” gürcü dilində “ürək” deməkdi. Kriminal aləm ona bu ləqəbi ürəkli olduğuna görə verib. “Quli” Marneulidə doğulan azərbaycanlı Otari Bədəlovla (“Otar”) yaxın dost olub.

“Otar”ın 2003-cü il martın 21-də Moskvadakı “Suşi” barda naməlum şəxslər tərəfindən güllələnməsindən sonra “Lənkəranski”yə “oğru” adı verən “Nardaranlı Mirseymur” da qətlə yetirilir ki, bunu da indiyədək “Quli”nin qisas cavabı hesab edənlər var. İllərdir bu qarşılıqlı qətllər davam edir və son olaraq bu ilin fevralında Moskvadakı “Abşeron” restoranında baş vermiş atışmada da “Quli” və “Lənkəranski” tərəfdarları arasında itkilər olub.

***

Gürcüstan doğumlu azərbaycanlı “qanuni oğru”lar və kriminallar bu davada əsasən “Quli”ni dəstəkləyir. Vaxtilə onlar bu dəstəyi Rusiya kriminalının “xaç atası” sayılan, Gürcüstan doğumlu Aslan Usoyandan da (“Ded Xasan”) alıblar.

“Quli”nin Gürcüstana ekstradisiyası məsələsi bir neçə dəfə gündəmə gəlsə də, bu da hansısa səbəbdən mümkün olmayıb.

Azərbaycanda qətl hadisəsində suçlu bilinərək 15 il müddətinə azadlıqdan məhrum edilən “Quli”nin vəkillərinin sözlərinə görə, o həbs edildiyi zaman Gürcüstanda verilən keçmiş SSRİ-nin pasportunu daşıyıb. İddiaya görə, “Quli” həbsxanada olduğu bu illərdə Azərbaycan vətəndaşlığı alması ilə bağlı rəsmi müraciət etməyib. Vəkillərindən birinin “Quli”yə istinadən dediyi bir cümlə də maraqlıdır: “Məni azad etsinlər, Azərbaycanda 1 saat belə qalmaram...”

***

“Quli”nin həbs müddəti azaldığı bir vaxtda qardaşı Müşfiq Səlifovu da həbs etdilər. Voleybol oyununa baxmağa gələn universitet tələbəsi M.Səlifovun üstündən rəsmi məlumata görə, “tapança tapılmışdı”. M.Səlifovun həbsindən sonra Azərbaycanın bir neçə həbsxanasında “qiyama cəhd” oldu ki, bu işdə də rəsmilər nədənsə, “Quli”ni sorumlu tuturdular.

2005-ci ildə isə onun haqqında daha bir qalmaqallı cinayət işi açıldı. “Quli”yə və daha bir neçə məhkuma cəzaçəkmə müəssisəsində zorlama faktına, eləcə də ayrı-ayrı şəxslərdən qanunsuz pul tələb etdiyinə görə ittiham irəli sürüldü.

“Quli” sonadək bu maddələri qondarma, onun “oğru” adına ləkə gətirmək cəhdi kimi qiymətləndirərək, qətiyyətlə rədd edirdi.

2005-ci ilin oktyabr ayının 14-də məhkəmədə dediyi son sözlərdən bəzi seçmələri təqdim edirik:

**“Bu məhkəmə prosesinin qapalı keçməsinin əleyhinə olmuşam. Çünki mənim gizlədiləsi heç nəyim yoxdur və mən düzəm. Mən bu gün Azərbaycanda yeganə ”qanuni oğru"yam ki, Azərbaycan türmələrindəki sözübütöv dustaqların və gənclərin taleyi mənim üçün əhəmiyyətsiz deyil. Bu ilin payızında mənim “zon”lara bütün növ narkotikdən istifadənin qadağan olunması barədə “proqonum” olub. Və hər şey də bundan sonra başlayıb... Çünki mən həbsxanalarda narkotik satışında külli miqdarda pul əldə edənlərin biznesi üçün əngəl yaratmışam. Mən “qanuni oğru”yam və mənim üçün “oğru” şərəfi hər şeydən üstündür. Mən siyasətlə məşğul deyiləm, mənim öz ideyam var: ədalət və təmizlik..."**

2006-cı ilin iyununda Apelyasiya Məhkəməsində “Quli” zorlama maddəsi ilə bağlı bəraət aldı. Yəni həmin maddə “Quli”yə “yapışmadı”. Məhkəmə həmçinin onun qapalı həbsxanada deyil, ciddi rejimli cəzaçəkmə müəssisəsində saxlanılmasına qərar verdi.

Bunu da bir neçə ay əvvəl “Quli”nin vəkillərindən biri deyib: **“Əfvlə bağlı da yəqin ki, heç zaman özü müraciət etməyəcək. Ancaq mən müdafiə etdiyim şəxsin azadlığa buraxılmasını istəyirəm...”**

❑ “Yeni Müsavat”



### “Azadlığa buraxsalar, Azərbaycanda 1 saat belə qalmaram...”



“Lotu Quli” və “Otar Marneulski” (sağdan birinci)

### “Siyasətlə məşğul deyiləm, mənim öz ideyam var: ədalət və təmizlik...”

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 42 (6070) 25 fevral 2015



# ABŞ İrəvanı kəlbəcərli girovları azad etməyə çağırdı

## Dövlət Departamenti erməni tərəfini humanizmə səslədi; sabah - Xocalı soyqırımının ildönümündə soydaşlarımızın "apelyasiya şikayəti"nə baxılacaq...

**ABŞ Dövlət Departamenti dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Viktoriya Nulandın kəlbəcərli girovlar - Dilqəm Əsgərov və Şahbaz Quliyevlə bağlı Bakı və İrəvana səfəri çərçivəsində verdiyi bəyanata münasibət bildirib. Bu barədə Dövlət Departamentinin rəsmi saytında yer alan məlumatda deyilir.**



Belə ki, ABŞ Xarici siyasət idarəsinin mətbuat katibi Cennifer Psaki mətbuat konfransında müvafiq orqanları Ermənistanda saxlanılan məhbusları azad etməyə çağırıb. Sitat: "Bundan əvvəl biz ATƏT-ın Minsk Qrupundakı nümayəndəmiz Ceyms Uorlik vasitəsilə hər iki girovun Azərbaycan hökumətinə geri qaytarılması məsələsini dəstəkləmişik. Tərəflər humanitar jest olaraq, məhbusları qaytarmağın yollarını tapmalıdırlar. Bu humanitar jest gərginliyi azaltmaq və tərəflər arasında inam yaratmaq məqsədi daşıya bilər".

Yada salaq ki, ötən həftə Viktoriya Nuland həm Azərbaycan paytaxtında, həm də İrəvanda (bir qədər fərqli kontekstdə) "Ermənistan humanitar jest olaraq onları buraxmalıdır" açıqlamasını vermişdi. Amerikanın ən təcrübəli diplomatlarından sayılan xanım Nuland girovların geri qaytarılmasının sülh prosesinə müsbət təsir edə biləcəyini xüsusi vurğulamışdı.

Dövlət katibi köməkçisinin ardınca Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik də Xankəndində, girovların saxlandığı yerdən cəmi bir neçə kilometr aralıda oxşar mövqeni əks etdirən açıqlama vermiş, "Gərginliyin artdığı bir vaxtda girovların qaytarılması kimi humanitar təşəbbüs danışıqlar üçün daha əlverişli atmosferin yaranmasına səbəb ola bilər" - söyləmişdi.

Onu da qeyd edək ki, Minsk Qrupunun digər həmsədr ölkəsi kimi Rusiya da bir neçə dəfə girovlarla bağlı bənzər mövqe ortaya qoyub. Ən birinci olaraq xarici işlər naziri Sergey Lavrov bu yöndə xoş məram nümayiş etdirib, hətta məsələ ilə əlaqədar erməni tərəfi ilə müzakirə aparacaqlarını söyləyib.

Son olaraq bunu Rusiya XİN nümayəndəsi Aleksandr Lukaşeviç mətbuata açıqlamasında həmin yanaşmanı bir daha təsdiqləyib: **"Nazir Sergey Lavrovun da dediyi kimi, bu məsələ erməni həmkarlarımızla müzakirə olunacaq".**

Beləcə, girovların taleyi ilə bağlı iki ən mühüm həmsədr ölkənin iradəsi ortadadır.

Şübhə yox ki, onların qətiyyəti yetərli olarsa, bu iş xeyli sürətlənə, soydaşlarımız azad oluna bilər. ABŞ Dövlət Departamentinin işğalçı tərəfə ünvanlı çağırışı bu yöndə ümidləri artırır. Hərçənd bir daha xatırladaq ki, erməni tərəfi "məhkəməni" dünya birliyi tərəfindən tanınmayan qondarma qurumun ərazisində aparmaqla və girovların boynuna olmayan qətl hadisəsini qoymaqla geri addım üçün faktiki surətdə imkan saxlamayıb, özlərini qəlizə salıb.

Üstəlik, az qala hər həftə isterik bəyanatlar verirlər ki, heç bir mübadilədən söhbət gedə bilməz, "uzaqbaşı Dilqəm Əsgərovu Ramil Səfərovla dəyişə bilərik" kimi sərsəm açıqlamalar səsləndirirlər...

Sabah fevralın 26-sı - Xocalı soyqırımının ildönümü günü soydaşlarımızın "apelyasiya şikayəti"nə baxılacaq. Bəs "məhkəmə" ABŞ və Rusiya rəsmilərinin mövqeyini, o sırada Dövlət Departamentinin çağırışlarını ciddiyə alacaqmı? Erməni "femidası" özü-özünü saldığı hüquqi bataqlıqdan çıxmağa cəhd edəcəkmi?

Bir gün də gözləyək. Ancaq erməni KİV-lərində bu mövzuda neçə gündür hökm sürən isterika, hətta xanım Nulandın humanist jesti ilə bağlı onun Ermənistan mətbuatında aşağılanmaqda davam etməsi hələ ki, nikbinlik üçün əsasların sanballı olmadığını göstərir. Hərgah, bunu çarəsizlikdən doğan hikkəli davranış da saymaq mümkündür. Ən azı ona görə ki, söhbət sıradan olan bir dövlətdən yox, ABŞ kimi supergücün iradəsi və çağırışından gedir.

# Vasitəçilərin növbəti yanlışı və naxışı

## Həmsədrlikdə Türkiyə də olsaydı, Minsk Qrupunun bəyanatında "Dağlıq Qarabağın faktiki rəhbərliyi" deyil, "işğalçı qüvvələr" ifadəsi işlədilərdi...

**Ötən həftə sonu ATƏT-in Minsk Qrupu həmsədrləri regiona səfərdən sonra verdikləri bəyanatda yenə də Azərbaycanla bağlı "quş" buraxdılar - ərazilərimizi işğal altında saxlayan qüvvələri "de-fakto rəhbərlik" kimi təqdim eləməklə.**

Xatırladaq ki, həmin bəyanatda aşağıdakı sitat əksini tapıb: "Həmsədrlər Azərbaycan və Ermənistanın prezidentləri, xarici işlər və müdafiə nazirləri ilə, o cümlədən Dağlıq Qarabağın de-fakto rəhbərliyi ilə görüşüblər. Görüşdə tərəflər münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduqlarını təsdiqləyiblər. Prezidentlər həmçinin atəşkəsi gücləndirməyə xidmət edəcək təkliflərini nəzərə almağa razılıq veriblər".

Yada salaq ki, vasitəçilər keçən ilin noyabrında da bənzər diplomatik, hüquqi-siyasi səhvə yol vermişdilər - erməni hərbi vertolyotunun vurulduğu ərazini "neytral zona" adlandırmaqla. Halbuki BMT, ATƏT, Avropa Şurasının tamhüquqlu üzvü kimi suveren Azərbaycanın dünya birliyi tərəfindən tanınmış sərhədləri daxilində "neytral ərazi" yoxdur, "işğal olunmuş ərazilər" və ya rəsmi Bakının müvəqqəti nəzarətində olmayan ərazilər anlayışı var.

Doğrudur, az sonra həmsədrlər yanlışa naxış vurdular və guya səhvlərinin düzəltdilər. Hələ ki növbəti "düzəlişin" nə vaxt ediləcəyi bilinmir. Ancaq təbii ki, əsas problem bəyanatlarla ilgili deyil, münaqişə ilə bağlı vasitəçilərin alt şüurunda kök salmış yanlış və ziyanlı yanaşmadadır. Sözsüz ki, həmsədrlikdə qardaş Türkiyə, hətta Almaniyada olsaydı, belə əcaib bəyanatlar da ortaya çıxmazdı. Fəqət, nə etməli ki, hazırkı üç həmsədr işğalçı ermənilərə daha yaxın, daha sıcaq münasibətdədir.



Ermənistanın hərbi müttəfiqi Rusiya - bəlli. Avropa Birliyini (AB) təmsil edən ermənipərəst Fransa da eləcə. Bugünlərdə AB-nin Güney Qafqaz üzrə təmsilçisi İrəvanda qondarma "DQR"in "xarici işlər naziri" ilə isti görüş keçirmədimi? Üçüncü həmsədr ölkə - ABŞ isə Dağlı Qarabağ separatçılarına hər il maliyyə yardımı edən, onların liderlərinə öz ərazisində məmnuniyyətlə qucaq açan dövlətdir.

Amma postsovet məkanında digər heç bir separatçı liderə (Abxaziya, Cənubi Osetiya, Dnestryanı bölgə, Krım, Donbas) belə lütfkarlıq göstərilmir. Tam əksinə, onların Amerikaya, Avropaya yolları çoxdan bağlanıb. Həmin separatçı rejimlərə hər hansı maliyyə köməyindən də söhbət belə gedə bilməz.

Qarabağ məsələsinə ikili standart yanaşmaya dair ən isti nümunə: həmsədrlərin regionda səfərdə olduqları vaxtda - keçən həftəsonu ABŞ Konqresi Qarabağ separatçılarına növbəti dəfə qucaq açıb. Belə ki, qondarma "DQR"in ABŞ-dakı "nümayəndəsi" Robert Avetisyan Konqresin erməni məsələsi üzrə komissiyasının həmsədri Frenk Palloninin ofisinin təşkil elədiyi xüsusi müzakirələrə qatılıb. Musavat.com-un xarici KİV-ə istinadən verdiyi xəbərə görə, Avetisyan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının hazırkı mərhələsi və Minsk Qrupunun həmsədri kimi ABŞ-ın vasitəçilik səylərindən danışıb, Birləşmiş Ştatların Dağlıq Qarabağa hər il ayırdığı maliyyə yardımından söz açıb.

Ermənistan səfirliyinin nümayəndəsi Qraçya Taşçyan, "Ay Dat" komitəsinin Vaşinqton ofisinin icraçı direktoru Aram Ambaryan, Amerika Erməni Assambleyasının nümayəndəsi Danile Kuşaçyan isə "öz müqəddəratını təyinetmə" haqqından, "separatçı rejimin dünya tərəfindən tanınması" prosesindən, habelə Ermənistan və Dağlıq Qarabağın təhlükəsizliyinin təmin edilməsi ilə bağlı məsələlərdən söz açıb. Dinləmələrdə 60-dan çox konqresmeninin ofisini nümayəndəsi iştirak edib.

Kəsəsi, ABŞ Konqresi binasında separatçılara tam bir dəstək tədbiri düzənlənib. Sual yaranır: belə bir şərait, lütfkarlıq, görəsən, digər separatçı rejimlərin təmsilçilərinə də yaradıla bilərmi? Əlbəttə ki, yox. O zaman nə fərqi oldu ki: Rusiya separatçılara hərbi, ABŞ və Avropa isə siyasi, maliyyə və informasiya dəstəyi verir?!

Məsələ də ondadır ki, MDB məkanındakı başqa separatçı liderləri, işğalçı Rusiyanı bütün vasitələrlə sıxışdıran, sözün həqiqi mənasında gözümçıxdıya salan Qərb təcavüzkar Ermənistana, Dağlıq Qarabağdakı qanunsuz quruma olduqca məhrəm münasibət bəsləyir. Sanki onlar heç bir ölkənin, qonşu Azərbaycanın ərazisini işğal etməyiblər. Sanki suveren Azərbaycanın torpaqlarının 20%-ni işğalda saxlayan ermənilər deyil, yad planetlilərdir.

Azərbaycan Respublìkasının Prezìdentì yanında Kütləvì İnformasìya Vasìtələrìnìn İnkìşafına Dövlət Dəstəyì Fondunun malìyyəsì əsasında. Səhìfənì hazırladı: Sìyasət şöbəsì

YENİ MÜSAVAT
N 42 (6070) 25 fevral 2015

# Aslanovun oğlu 300 minlik maşını hansı pula alıb?

## Məmur övladları ərəb şahzadələrindən geri qalmırlar; hüquqşünas deyir ki, Nazirlər Kabineti deklorasiya haqda qanunu 10 ildir tətbiq etmir: "İctimaiyyət kimlərin hansı yolla nə qədər qazandığını yaxşı bilir"

**İndi rəhmətlik Sabirin "əcnəbilər seyrə balonlarla çıxır, bizlər isə avtomobil minməyiriz" deyimi aktuallığını itirib. Azərbaycanda məmurların və onların övladlarının idarə etdiyi maşınların qiymətinə baxanda görünür ki, ərəb şahzadələrindən geri qalmırlar.**




Nəzərə alsaq ki, ərəb şeyxləri rəsmən milyarderdirlər və onlar sərvətini gizlətmir, bu zaman açıq sual qalmır. Azərbaycanda isə oliqarxlaşmış vəzifəlilərin balaları nə rəsmi milyonerdir, nə də işlədiyi yerlərdən aldığı məvacib fantastik məbləğə olan avtomobili almağa yetir. Hələ bu azmış kimi, onlarla ailənin həyatını məhv ediblər, törətdikləri qəzalarda neçə insanın faciəsinə səbəb olublar.

Fevralın 20-də Şəmkirin keçmiş başçısı Aslan Aslanovun oğlu Turqayın saxlanması xəbəri də bu sıradan biri idi. Turqay Aslanovu gecə saat 1 radələrində yol polis əməkdaşları Nəsimi rayonu ərazisində kobud qayda pozuntusu törədərkən saxlayıblar. 300 min dollar qiyməti olan "Bentley" markalı maşının sükanı arxasında sərxoş olan T.Aslanov özünü itirmədən əlini telefona atıb. Lakin ona adamları narahat etməməyi məsləhət biliblər. Doğrudur, sonra həm Dövlət Yol Polisi rəsmisi, həm A.Aslanovun özü bu məlumatı təkzib etdi. Bildirildi ki, bu maşın başqasına etibarnamə ilə verilib.

Ancaq fakt ondan ibarətdir ki, Ədliyyə Nazirliyinin İstintaq şöbəsində müstəntiq vəzifəsində işləyən T.Aslanov 300 minlik maşın alıbmış. Azərbaycan reallığında bu avtomobili hansı pulla əldə etməyin mümkünlüyü heç kəsə sirr deyil. Bəs müstəntiq işləyən bir şəxs aldığı məvaciblə "Bentley" ala bilərmi? Bu pul Aslanovun oğlunda hardandı?

Bu halda məmurlardan öz deklorasiyasını açıqlamağı tələb etmək olarmı? Qərb dövlətlərində deklorasiya haqqında qanun işləkdir və məmurlar qazancının mənbəyini açıqlayır.

**Hüquqşünas Müzəffər Baxışov "Yeni Müsavat"a açıqlamasında qeyd etdi ki, 2003-cü ildə korrupsiyaya qarşı mübarizə haqda qanun qəbul edilib. Hüquqşünasın sözlərinə görə, 2005-ci ildə bu qanunun bir müddəası deklorasiya barəsində oldu:** "Bu qanunda müddəa ondan ibarətdir ki, vəzifəli şəxslər gəlirləri barəsində hər ilin sonunda işlədiyi yerin rəhbərinə hesab verməlidir. Kimsə Milli Məclisdə, kimsə prokurorluq, kimisi gömrük orqanlarında işləyirsə, deklorasiya haqda qanuna görə öz gəlirlərini açıqlamalıdır. Ancaq çox əfsus ki, bu qanunun tətbiqi barəsində Nazirlər Kabineti qərar qəbul etməyib. 2005-ci ildə Nazirlər Kabinetinə bu qanun göndərildi ki, tətbiqinə qərar verilsin. Təsəvvür edin ki, artıq 2015-ci ildir və 10 ildə bu qərar qəbul olunmayıb".

**M.Baxışov bildirdi ki, qanunun tətbiqi üçün qərarın qəbul olunmaması məmurların öz gəlirlərini gizlətməyə imkan yaradıb. Hüquqşünas inanmır ki, yaxın gələcəkdə qərar qəbul edilsin:** "Hökumət elan edir ki, hər yerdə korrupsiyaya qarşı mübarizə gedir. Ancaq ictimaiyyət kimlərin hansı yolla nə qədər qazandığını yaxşı bilir, çünki hər şey göz qabağındadır. Sadəcə, insanlar hələ buna dözür".

**Ekspertin sözlərinə görə, A.Aslanovun oğlu və ya hər hansı məmur dövlətdən aldığı əmək haqqı ilə bahalı avtomobilə sahiblənə bilməz:** "Onun aldığı maaş uzaqbaşı 500-1000 manat olsun. Bu pulla Allah ona 1 milyon il ömür də versə, bahalı maşın ala bilməz. Hakimiyyət də bu şəxslərlə bağlı mübarizə haqda düşünmür. Nazirlər Kabineti qanunun tətbiqi barədə qərar qəbul etməsə heç cür mümkün olmayacaq".

❑ E.SALAMOĞLU

# Qiyməti AZAL yox, avro artırıb

## Məhərrəm Səfərli: "Bu bizdən asılı olan məsələ deyil"

**"AZAL təyyarə biletlərinin qiymətini qaldırmayıb. Manatın avroya nisbətən ucuzlaşması səbəbindən hazırkı məzənnələrə uyğun olaraq qiymətlər dəyişib". Bu sözləri "Yeni Müsavat"a açıqlamasında "Azərbaycan Hava Yolları" (AZAL) QSC-nin mətbuat xidmətinin rəhbəri Məhərrəm Səfərli təyyarə biletlərinin qiymətinin artmasına münasibət bildirərkən deyib.**

Məhərrəm Səfərlinin sözlərinə görə, istər beynəlxalq, istərsə də yerli uçuşların tarifləri əvvəlki kimidir. Sadəcə olaraq, bu tariflər avro ilə hesablandığı üçün avronun bahalaşması qiymətlərə də adekvat təsir göstərib: «Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının tələbinə əsasən, avrozonada yaşayan bütün ölkələrdə aviabiletlər avro kursu ilə satılır. Avro manata nisbətdə bahalaşdığı üçün biletlər də bahalaşıb. Ancaq bunu "AZAL qiymətləri qaldırdı" kimi təqdim etmək düzgün deyil. Çünki bu bizdən asılı olan bir məsələ deyil".

AZAL rəsmisinin sözlərinə görə, əgər avro əvvəlki məzənnəyə qayıtsa biletlər də ucuzlaşacaq.

Qeyd edək ki, avronun bahalaşmasının ardından "Azərbaycan Hava Yolları" QSC-nin həyata keçirdiyi uçuşların qiyməti təxminən 25-30% artıb.

**"Yeni Müsavat"a açıqlamasında məsələni şərh edən iqtisadçı ekspert Qubad İbadoğlu** da bildirdi ki, beynəlxalq aviasiyada qiymət siyasəti həmin ölkənin yerli valyutasına ekvivalent olaraq avro ilə hesablanır və bu yalnız AZAL-a məxsus deyil: «Digər beynəlxalq şirkətlər də eyni qaydada öz biletlərini avronun yerli valyutaya olan ekvivalenti ilə hesablayırlar. Bu baxımdan hazırkı məzənnə dəyişiklikləri qiymətlərə birbaşa təsir edir. AZAL-ın qiymətləri dəyişməmək kimi bir alternativi yox idi. Çünki aviaşirkətlərin həyata keçirdiyi bütün beynəlxalq ödənişlər avro ilə həyata keçirilir. Xarici ölkələrin aeroportlarına edilən ödənişlər, orada yanacaq alışı və sair avro ilə həyata keçirilir".

**Ekspert onu da vurğuladı ki, AZAL ölkədaxili uçuşları yerli valyuta ilə həyata keçirə bilər:** "Daxili uçuşlarda bütün ödənişlər yerli valyuta ilə həyata keçirilir. Bu baxımdan AZAL daxili uçuşların qiymətini dəyişməyə bilər. Düzdür, orada ümumi tarif siyasətindən irəli gələrək qiymətləri dəyişirlər. Ancaq daxili uçuşlar yerli valyuta ilə hesablana və əvvəlki qiymətində saxlana bilər".

❑ Nərgiz LİFTİYEVA

# Nazarbayevin kürəkəninin ölümü: intihar, yoxsa qətl?

## Rahat Əliyev ömürlük prezident olmaq üçün seçkilərə hazırlaşan Nazarbayevin bir çox sirlərini "Xaç qayınatası" sənədli povestində faş etmişdi, amma bu, onun bildiyi sirlərin hamısı deyildi...






**Qazaxıstan prezidenti Nursultan Nazarbayevin keçmiş kürəkəni, Avstriyadakı sabiq səfir, qalmaqallı "Xaç qayınatası" sənədli povestinin müəllifi Rahat Əliyev Vyana həbsxanasında intihar edib. Virtualaz.org saytı Avstriyanın "Kurier" nəşrinə istinadən xəbər verir ki, R.Əliyev öz kamerasında asılmış vəziyyətdə tapılıb. Bu fakt Vyana Məhkəməsindən də təsdiq edilib. R.Əliyevin vəkili onun intiharının inandırıcı olmadığını deyib.**

Xəbərdə o da bildirilir ki, R.Əliyevi bugünlərdə təkadamlıq kameraya köçürülübmüş. İntihardan bir gün əvvəl vəkili R.Əliyevlə görüşüb və onunla cinayət işinə dair bir sıra məsələləri müzakirə edibmiş.

Qazaxıstan prezidenti Nursultan Nazarbayevin böyük qızı Dariqa Nazarbayeva ilə evli olmuş Rahat Əliyev 2007-ci ilə qədər Qazaxıstanın Avstriyadakı səfiri olub. O, 2008-ci ildə iki bankirin - Joldas Timraliyev və Aybar Hasenovun qətlində təqsirli bilinirdi. Hər iki bankir 2007-ci ildə müəmmalı şəkildə yoxa çıxmışdı. Onların meyiti 2011-ci ildə tapılmışdı. Qazaxıstan məhkəməsi R.Əliyevi qiyabi olaraq 40 il azadlıqdan məhrum etmişdi. Çünki R.Əliyev 2007-ci ildən bəri xaricdə gizlənirdi. Avstriya sabiq səfiri Qazaxıstana təhvil verməkdən imtina edirdi. Buna səbəb kimi R.Əliyevin ölkəsində ədalətli mühakimə edilməyəcəyi göstərilirdi.

Avstriyanın hüquq-mühafizə orqanları R.Əliyevi 2014-cü il, iyunun 5-də Vyanada həbs etmişdi.

Nazarbayevin böyük qızı Dariqa ilə evli olan R.Əliyev bir vaxtlar Qazaxıstan hakim elitasının ən güclü fiqurlarından hesab olunurdu, ölkənin bütün gəlirli biznes sahələrinə onlar nəzarət edirdilər. Rahat Nazarbayev varis sayılırdı.

2007-ci il fevralın 9-da ölkənin ən iri banklarından olan "Nurbank"ın səhmdarı Rahat Əliyev bankın sədr müavininin müşaviri Vadim Koşlyakla birlikdə "Nurbank"ın təsərrüfat müdiri Aybar Xasenovu və Joldas Timiraliyevi zorla avtomobilə mindirərək naməlum istiqamətdə aparıb. Bundan sonra Xasenovun və Timiraliyevin izi itib.

Mayın sonunda R. Əliyev bu iki şəxsin oğurlanması üzrə qaldırılan cinayət işində əsas fiquranta çevrilib. Qazaxıstan Baş Prokurorluğu ona qarşı ittiham irəli sürüb. Nazarbayevin bundan sonra ittihamlara tuş gəlməmək üçün öz kürəkənindən üz döndərib. O, bütün postlardan məhrum edilib. Elə həmin gün yeznə Vyanadan elan edib ki, qayınatasına qarşı müxalifətə keçir.

2008-ci ildən başlayaraq Nazarbayevin sirlərini açan Rahat Əliyevə Qazaxıstanda daha bir neçə maddə üzrə ittiham irəli sürülüb. Bura qanunsuz dinləmələr, dövlət sirlərini yaymaq da daxildir. Rahat Əliyev həmçinin qazax telejurnalisti Anastasiya Novikovanın Livanda qətlə yetirilməsini təşkil etməkdə ittiham olunurdu.

1980-ci ildə anadan olmuş Anastasiya Novikova Rahat Əliyevə məxsus KTK kanalında aparıcı işləyirdi. O, həm də Rahat Əliyevin məşuqəsi idi. 2002-ci ildə Rahat Əliyev Qazaxıstanın Avstriyadakı səfiri təyin olunanda qohumu Daniyar Esteyanı da səfirlikdə sürücü kimi işə götürdü. Anastasiya isə Avstriyaya köçüb yerləşmək üçün Estenlə saxta nikaha girdi.

2003-cü ildə Anastasiya formal əri Daniyarla birlikdə Beyruta gedir və orada Rahat Əliyevin livanlı qohumunun evində yaşamağa başlayır. Həmin ilin avqustunda onun Luiza adlı qızı dünyaya gəlir. 2004-cü il iyunun 19-da isə Anastasiyanın cəsədi yaşadığı evin yanında metal hasardan asılı tapılır. Anastasiyanın cəsədi Rahat Əliyevə məxsus hava yolları şirkətinin təyyarəsi ilə Qazaxıstana aparılıb. Qadının cəsədi gizlicə Cənubi-Qazaxıstan vilayətində kənd qəbiristanlığında dəfn olunur. Luizanı isə Daniyar Estenin qohumlarına verirlər. Daniyar yenidən Qazaxıstanın Avstriyadakı səfirliyinə qayıdır və sürücü işləməkdə davam edir. 2005-ci ildə Daniyar da Vyanada müəmmalı avtomobil qəzasında ölür. Onun ölümü də araşdırılmamış qalır.

Anastasiyanın müəmmalı ölümü haqda araşdırma isə ancaq 2008-ci ildə "Nurbankqeyt" qalmaqalından sonra başlayır. Cəsəd eksqumasiya olunur və məlum olur ki, Anastasiyanın bədənində çoxsaylı amansız işgəncə izləri var, bütün sümükləri qırılıb, ölü tapılanda başı keçəl qırxılmış olub. Teleaparıcının qətlinə görə cinayət işi qaldırılır və R.Əliyevə yeni "qətl" ittihamı irəli sürülür. Lakin Avstriya keçmiş kürəkəni təhvil vermir. Maraqlıdır ki, yoxa çıxan bankirlərin çürümüş cəsədi çəlləkdən tapılanda onların da başının keçəl qırxıldığı məlum olmuşdu. Qazaxıstan prokurorluğu bu detala görə qətlin Rahat Əliyev tərəfindən törədildiyinə bir daha əmin olub. Çünki qurbanları işgəncə verib öldürdükdən sonra başlarını keçəl qırxmaq onun dəst-xətti idi.

Dariqadan boşanandan sonra Rahat Əliyev Elnara Şorazova ilə evlənib və bu nikahdan bir oğlu var. Keçmiş kürəkən ikinci nikahdan sonra təzə arvadının familiyasını götürüb və Rahat Şoraz ad-soyadı ilə yaşayıb.

Rəsmi Almatanın bu müəmmalı intiharda əlinin olub-olmaması qaranlıq qalır. Amma aydındır ki, yaxınlarda ömürlük prezident olmaq üçün seçkilərə hazırlaşan Qazaxıstan prezidenti Nursultan Nazarbayevin bir çox sirlərini Rahat Əliyev daha yaxşı bilirdi. O, Qazaxıstanın hakim ailəsində baş verənləri "Xaç qayınatası" sənədli povestində yazmışdı. Amma bu, təbii ki, R.Əliyevin bildiyi sirlərin hamısı deyildi. Onun varlığı isə daima Nazarbayevləri rahat buraxmırdı...

❑ Xəbər xidməti

**Avropa Oyunları günlərində Bakıda toy mərasimlərinin keçirilməsinə qadağa qoyulub. Paytaxtın Xətai, Nizami, Suraxanı və Sabunçu rayonlarında fəaliyyət göstərən şadlıq saraylarına bu qadağa xüsusi olaraq şamil edilib. Artıq bəzi restoranlar həmin tarixlərə təyin etdikləri toy mərasimlərinin günlərində dəyişiklik ediblər. Restoranlara xəbərdarlığı isə Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polkovnik-leytenant Vaqif Əsədov edib.**



# "Toy-yas qadağasından ən çox restoranlar və işbazlar qazanacaq"

## Hökumət rəsmisi bunun qadağa deyil, tövsiyə olduğunu söyləsə də, iqtisadçı ekspert istənilən halda daha çox xalqın əziyyət çəkəcəyi qənaətindədir...

Əsədov mətbuata açıqlamasında bildirib ki, həmin tarixlərdə toy mərasimləri keçirilməyəcək. Biz də paytaxtda fəaliyyət göstərən bir neçə şadlıq sarayı ilə əlaqə saxlayıb bu qadağa ilə bağlı münasibətlərini öyrəndik.

**"Altun Saray" şadlıq sarayının direktoru iyunun 12-nə kimi hər gün toylarının olduğunu dedi:** "Toylara qadağa qoyulmayıb, sadəcə, məhdudlaşdırılıb. Həm də Avropa Oyunlarının keçirildiyi məkan Nizami, Xətai rayonlarının ərazisinə düşdüyü üçün camaatdan xahiş olunub ki, imkan daxilində toy etməsinlər və sıxlıq yaranmasın. Bizim şadlıq sarayında iyun ayının 12-nə kimi hər gün toy var. Hamı bilir ki, orucluqda toy olmur. Burada 12-dən 18-nə kimi olan 6 günün söhbəti var. Sadəcə olaraq, bu 6 günə qadağa qoyulub. Bunu da şişirtmək lazım deyil".

**"Su Sonası" şadlıq sarayının direktoru isə onlara bu haqda rəsmi xəbərdarlıq edilmədiyini dedi:** "Bizim o tarixlərdə toyumuz yoxdur. Həm də bu haqda heç rəsmi xəbərdarlıq da yoxdur. Əgər məhdudiyyət varsa, biz də buna əməl etməliyik".

**"Neolit" restoranından isə bildirdilər ki, həmin tarixlərə heç bir toy nəzərdə tutulmayıb:** "İyunun 12-dən 28-dək heç bir toy sifarişimiz yoxdur. Bu müddət ərzində bizə toy sifarişi götürməməklə bağlı heç bir məlumat verilməyib. Bizə həmin tarixlərdə toyların keçirilməsinə qadağa qoyulması ilə bağlı heç bir qurum tərəfindən rəsmi müraciət olunmayıb".

**"Sarı gəlin" şadlıq sarayı da idman tədbiri günlərində toy mərasimi keçirməyəcək:** "Qadağadırsa, hamıya şamil edilməlidir. O cümlədən bizə. Bizə toyların keçirilməməsi ilə bağlı rəsmi müraciət olunmayıb. Həmin tarixlərə toy günlərinin vaxtını sifarişçilərlə danışdıq, anlaşdıq, toyun gününü dəyişdik".

Qeyd edək ki, qadağa yas mərasimlərinə də qoyulub. Belə ki, 12-28 iyun tarixlərində ölüsü ölən şəxs həyətdə və ya yolda çadır qura və yas məclisi keçirə bilməz. Yas məclisləri həmin tarixlərdə ancaq mərasim zallarında keçirilməlidir. Bu qadağa isə yas mərasimləri zamanı qurulan çadırların tıxaca səbəb olması ilə bağlıdır.

**Vaqif Əsədov isə mətbuata açıqlamasında Avropa Oyunları zamanı toy mərasimləri qadağan edilib fikrinə və tənqidlərə aydınlıq gətirərək bildirib ki, söhbət əslində qadağadan yox, tövsiyədən gedir:** "Böyüklərimizə müraciət edirik, xahiş edirik ki, Avropa Oyunları zamanı toy keçirməyin mümkünsüzlüyünü nəzərə alıb başqa vaxta təyin etsinlər. Yasların keçirilməsi ilə bağlı mərasim zallarından istifadə edilsin. Avropa oyunları zamanı isə yollarda çadırların qurulması mümkünsüz olacaq".

**İqtisadi və Sosial İnkişaf Mərkəzinin eksperti Rəşad Həsənov bütün bu qadağa və məhdudiyyətlərdən daha çox xalqın əziyyət çəkəcəyini dedi:** "Bu qadağalar əslində restoran biznesi üçün heç bir problem yaratmır. Sadəcə, vətəndaşların gələcək planlarını poza bilər. Mən düşünmürəm ki, bu 15 günlük qadağaya görə kimsə öz toy məclisini 2015-ci ildən 2016-cı ilə keçirsin. Bilirsiniz ki, biz İslam ölkəsi kimi Məhərrəmlik və Ramazan ayında toy etmirik. Bu aylar başlamadan əvvəl və bir az da sonra toyların sıxlığı müşahidə olunur. Ümumi restoran biznesi 15 gündə heç bir itki ilə qarşılaşmayacaq. Yalnız iki hal baş verə bilər. Restoranlarda oyunlardan qabaq toyların olması ilə bağlı tələbat çoxala bilər. Təbii ki, restoranların da çoxalan toyları yerləşdirmək üçün zalları yetməyəcək. Qısa müddətdə də yeni bir zal tikmək, bərpa etmək mümkün deyil. Bu mümkün olmadığı üçün restoranlar yaranmış tələbatdan istifadə edərək menyularının qiymətini bahalaşdıracaq. Belə olan təqdirdə isə restoranların gəlirləri arta bilər. Yəni ümumilikdə restoranlar bu prosesdən heç bir itkiyə məruz qalmayacaq. Sadəcə olaraq, vətəndaşlar restoranların yaranmış vəziyyətdən sui-istifadəsi nəticəsində müəyyən itkilərə məruz qala bilərlər. Amma düşünürəm ki, bu qərarın Avropa Oyunlarına təxminən 4 ay qalmış açıqlanması vətəndaşlara, o cümlədən restoranların biznesinə də şərait yaradır ki, bu dövr ərzində onlar öz işlərini planlaşdırsın".



**Yas mərasimləri üçün qurulan çadırların qadağasına gəlincə isə R.Həsənov mərasim zallarında da işbazların qiyməti artıracağını bildirdi:** "Yas sahəsində də müəyyən sıxıntılar yaşanacaq. Ölüm elə şeydir ki, bunu proqnozlaşdırmaq mümkün deyil. Ola bilsin məhz həmin dövrdə mərasim zallarına tələbat artsın. Mərasim zalı da eyni restoranlar kimi yaranmış vəziyyətdən istifadə edərək öz xidmət qiymətlərini bahalaşdırsınlar. Eyni zamanda o da mümkündür ki, mərasim zallarında yer qıtlığı olsun. Bildiyiniz kimi, paytaxtda yas mərasimlərinin 60-70 faizi çadırlarda keçirilir. Tələbatın bu qədər artmasını mərasim zalları qarşılaya bilməyəcək. Buna görə də ciddi problemlər yaşana bilər. Odur ki, insanlar yas mərasimlərini evdə və ya həyətlərində keçirmək məcburiyyətində qalacaqlar".

❑ Günel MANAFLI

# Bakıda toyda kütləvi dava: bir nəfər bıçaqlandı




**Bakıda keçirilən toy mərasimi zamanı kütləvi dava düşüb, bir nəfər bıçaqlanıb. Binəqədi Rayon Polis İdrəsindən (RPİ) "Report"a verilən məlumata görə, hadisə Xocasən qəsəbəsi ərazisində yerləşən şadlıq sarayında qeydə alınıb. Belə ki, əvvəlcə 44 yaşlı Əsədov Rafiq Adil oğlu ilə tanışı, Bakı şəhər sakini, 26 yaşlı Şəhriyar Məmmədov arasında mübahisə yaranıb. Yaranan mübahisəyə sonradan toyda iştirak edən digər qonaqlar da qoşulub.**

Dava zamanı R.Əsədov şadlıq sarayına qayıdaraq stolun üstündən götürdüyü bıçaqla Ş.Məmmədovu vurub. Xəstəxanaya çatdırılan yaralının həyatını xilas etmək mümkün olub. Hadisə zamanı daha iki nəfər isə yüngül xəsarətlər alıb.

Ş.Məmmədovu bıçaqlayaraq hadisə yerindən qaçan R.Əsədov Binəqədi RPİ-nin əməkdaşları tərəfindən yaxalanaraq istintaqa təhvil verilib. O, ifadəsində zərərçəkəni onu təhqir etdiyi üçün bıçaqladığını bildirib.

Faktla bağlı cinayət işi başlanılıb, araşdırmalar davam edir.

# Prokuror sabiq hakimə 10 il cəza istədi



Həsən Əliyev

**Fevralın 24-də Gəncə Ağır Cinayətlər Məhkəməsində dələduzluqda ittiham olunan sabiq hakim Həsən Əliyev, Elman Məmmədov və Taleh Süleymanovun cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib. Virtualaz.org-un verdiyi xəbərə görə, prosesdə dövlət ittihamçısı Anar Mirikişiyev ittiham nitqi ilə çıxış edib. O, sabiq hakim Həsən Əliyevin, Elman Məmmədovun, Taleh Süleymanovun azadlıqdan məhrum edilməsini istəyib.**

Prokuror sabiq hakim Həsən Əliyevə 10 il, Elman Məmmədovla Taleh Süleymanovun hər birinə isə 9 il iş istəyib.

Bundan sonra proses martın 2-dək təxirə salınıb.

Xatırladaq ki, 2007-2014-cü illərdə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim işləyən Həsən Əliyevin səlahiyyətlərinə ölkə başçısı İlham Əliyevin sərəncamı ilə ötən ilin fevral ayında xitam verilib.

Təxminən 5 ay sonra isə uzun illər prokurorluq və məhkəmə orqanlarında çalışan H.Əliyevə qarşı Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla dələduzluq törətmə) və 312.2-ci (rüşvət vermə) maddələri ilə ittiham irəli sürülüb və barəsində başqa yerə getməmək haqqında iltizam qətimkan tədbiri seçilib.

Buna səbəb Ramazan Səlimov adlı şəxsin iddiası olub. R.Səlimov iddia edib ki, sabiq hakim ondan vəzifəyə düzəltmək vədi ilə 600 min manat pul alaraq qaytarmayıb.

# Hacı Qalibi debata çağırırıq

## POSAT kooperativinin rəhbəri Yusif Nağıyev: "Gəlsin redaksiyada görüşək, o da sənədlərini göstərsin, biz də"



Qalib Salahzadə

**POSAT bağ-tikinti kooperativinin üzvləri deputat Hacı Qalib Salahzadəni debata dəvət edir. Bunu kooperativin sədri Yusif Nağıyev redaksiyamıza müraciət edərək deyib. Y.Nağıyev "Yeni Müsavat" qəzetinin ötən saylarında yayımlanan "Şeyxin qudasından prezidentə şikayət olundu" yazısında Hacı Qalib Salahzadənin dediklərinin yalan və əsassız olduğunu bildirib. Xatırladaq ki, yazıda POSAT-ın üzvləri deputatı onlara məxsus torpaq sahəsini mənimsəməkdə ittiham edirdilər. Deputat isə onların dediklərini əsassız adlandıraraq seçki öncəsi ona qarşı təxribat qurulduğunu və POSAT kooperativinin arxasında kimlərinsə dayandığını bildirmişdi.**

Redaksiyamıza müraciət edən POSAT-ın sədri Y.Nağıyev dediklərini sübut etmək üçün deputatı debata çağıraraq hər şeyi sənədlərlə sübut edə biləcəyini bildirdi: "Bizim torpağımızı zəbt edən Qalib Salahzadə həmin yazıda bildirib ki, guya biz parlament seçkiləri ilə əlaqədar təxribat törədirik. Bu, tam yalandır. Onun yenidən deputat seçilib-seçilməyəcəyi bizi qətiyyən maraqlandırmır. İnanıram ki, bu, seçiciləri də maraqlandırmır. Bu adam deputat statusunu alaraq öz maraqları üçün çalışır, seçicilərinə xidmət etmir. Biz torpağımızla bağlı öz sözlərimizin tam qanuna uyğun, həqiqət olduğunu təsdiqləyirik. Müstəqil, obyektiv yoxlama qarşısında dediklərimizin həqiqət olduğunu sübut etməyə hazırıq. Bilirik ki, onun dırnaqarası imkanları çox böyükdür. Bu şəxs həmin imkanlardan istifadə edib çox şeyə nail ola bilər. Dediklərimizin həqiqət olduğunu bilmək istəyirsə, bizimlə görüşsün. Buyursun, gəlsin redaksiyada debata çıxaq. O, öz sənədlərini bizə göstərsin, biz də öz sənədlərimizi ona. Bu işdən başı çıxan bir insan da baxsın ki, bu sənədlərin hansı saxtadır, hansı saxta deyil".

**POSAT-ın sədri bildirdi ki, deputatın dediyi kimi, onların arxasında heç kim dayanmır. Y.Nağıyev bildirdi ki, siyasi maraqları yoxdur:** "Biz sadəcə olaraq Hacı Qalib Salahzadənin zəbt etdiyi torpağımızı qaytarmasını tələb edirik. Heç olmasa Allahdan qorxsun. 1989-1990-cı illərdə insanlar bura pul qoyublar. Şəxsən mən və mənim kimi onlarla insan banka 10-15 min rubl pul keçirmişik, sənədləri də var. Biz bu dediklərimizi sübut etmək üçün onu debata çağırırıq. Qoy bizimlə üzbəüz danışsın".

❑ Günel MANAFLI




# Masallının kəndləri 4 gündür zülmət içindədir

**Ölkə ərazisində son kəskin hava şəraitinin fəsadları hələ də aradan qaldırılmayıb. Xüsusən də bölgələrdə əhalinin elektrik enerjisi ilə təminatında bu gün də ciddi problemlərin qalması haqda məlumatlar gəlməkdədir.**

Onların sırasında Masallı rayonunun bir çox kəndləri də var. Redaksiyamıza çatan bilgilərə görə, hazırda rayonun Emilli yarımstansiyasından elektriklə təmin olunan kəndlərinin heç birində - Hacıtəpədə, Xırmandalıda və digərlərində 4 gündür işıq yoxdur. Sakinlərin bununla bağlı israrlı şikayətləri də vəziyyətə müsbət təsirini göstərə bilməyib.

Onların sözlərinə görə, kəndlərdəki elektrik dirəkləri əslində sovet dövründən qalma olsa da, sənədlərdə guya "təzə" kimi gedir. Guya onlar indiyədək 3 dəfə dəyişdirilib və növbəti dəfə yalnız 2018-ci ilə yenilərı ilə əvəzlənə bilər. Görəsən, insanlar gözlərinə inansınlar, yoxsa pripiskaya?

Əlavə edək ki, Masallının başqa kəndlərində (Mollaoba, Babaser və başqaları) 3 gündən sonra işıq olsa da, fasilələrlə verilir.

❑ MURLAN

YENİ MÜSAVAT
N 42 (6070) 25 fevral 2015

# "Südçü sovxozu"nda süd kimi yol yeyintisi...

## Prezidentin sərəncamı icra olunmayıb; Binə qəsəbəsinin küçələri hələ də acınacaqlı durumdadır, sakinlər: "Yolu düzəltmək əvəzinə, uşaqları tutub gözümüzü qorxudurlar"...

**Bakının Binə qəsəbəsindəki "Südçü sovxozu" adlanan yaşayış massivi süd yox, palçıq gölündə üzür. Hətta yerli sakinlərin bu bərbad yolu bağlaması, kütləvi etirazı, bəzilərinə cinayət işi açılması bahasına belə problem həllini yenə də tapmadı.**



Artıq mart ayı yaxınlaşır və binəlilərin yol əzabı onlardan uzaqlaşmır. Əhali hər gün palçıq, lehmə içində, tamamilə dağılmış yoldan keçməlidirlər. Binə yollarının nə günə düşdüyünü təsvir etməyə ehtiyac da yoxdur. Qəsəbədən çəkilmiş görüntülərə baxmaq kifayətdir ki, şəhərdən çox aralıda yerləşməyən bu ərazinin vəziyyətini anlayasan.

Əslində Binə üçün fərq etmir - istər günəşli, istərsə də qarlı-yağışlı günlərdə qəsəbənin yolları acınacaqlı vəziyyətdə olur. Ona görə də son iki gündə qarlı hava şəraiti camaatın əvvəlki çətinliyini birə-beş artırıb. Hava şəraiti yaxşılaşsa da, Binənin yolları yaxşılaşmayıb.

Sakinlər məsələni ictimailəşdirməkdən yorulduqlarını deyirlər. Onların sözlərinə görə, prezidentin Bakıərafı qəsəbə və kəndlərinin yollarını yaxşılaşdırmaq barədə sərəncamı, bu sərəncama istinadən ayrılan vəsaitlər də var. Amma nə sərəncam, nə də o pul qəsəbəyə çatıb. Məlum olub ki, Binəyə ayrılan pullar mənimsənilib. Camaat isə Xəzər Rayon İcra Hakimiyyətini (RİH) qınayır.

Xəzər RİH bir dəfə də olsun qəsəbə əhalisinin şikayəti ilə maraqlanmayıb. Aksiya keçirilən gün də rəsmilərdən kimsə hadisə yerinə gəlməyib. Əvəzinə etirazçıların qabağına polis çıxıb. İndi nə məktəblilər, nə yaşlı adamlar bu yoldan istifadə edə bilir. Qəsəbə camaatı yol probleminin nə zamanadək davam edəcəyini sual edirlər...

***

**Binəli Firuz Bağırov deyir ki, işə gedib çatanda üst-başı palçıq içində olur. O, uşaqların məktəbə getməyə çətinlik çəkdiyini söyləyir. Şikayətçi danışır ki, Xəzər RİH-də bu problemdən məlumatlıdırlar:** "Bu yolu gərək qaloş geyinib keçəsən. Maşınlar bu çala-çuxura düşməkdən sıradan çıxır. Marşrutlar ara yola girmək istəmirlər. Ara yollar lap pis gündədir. Hər gün marşrut dayanacağına gəlmək üçün piyada palçıq içində gedirəm. Uşaqlar daha çox əziyyət çəkirlər. Biz oktyabrdan bu yana şikayət edirik, amma baxan yoxdur. İnternetdə çəkib yayırlar, qəzetlərə şikayət eləmişik. Ondan sonra məhəllə camaatı mitinq elədi, 4 nəfəri içəri basdılar. Yolu düzəltmək yerinə uşaqları tutub gözümüzü qorxudurlar".

**Qəsəbənin digər sakini Ədilə Cəfərova əhali adından Nəqliyyat Nazirliyinə, "Azəryolservis" ASC-yə və Xəzər RİH-ə rəsmi məktub ünvanladıqlarını söylədi. Rəsmi qurumlara müraciətdə yada salınıb ki, prezidentin 2014-cü il yanvarın 17-də imzalanmış sərəncamı var. Sərəncamda Bakı kənd və qəsəbələrinin 2014-2016-cı il üçün sosial-iqtisadi inkişaf proqramı əksini tapıb. Həmin proqramda Binə qəsəbəsinin yollarının yaxşılaşdırılması nəzərdə tutulur. Amma heç bir tədbir görülməyib:** "Belə laqeyd münasibətin səbəbi bizə aydın deyil. Biz bilmirik ki, niyə belə edirlər. Hər yerdə abadlıq işləri aparılır. Bu yolları təmir etmək nə çətin işdir ki? Lap deyək ki, yola ayrılan pulu yeyiblər. Gərək bir iş görülsün ki, yeyinti də olsun. Camaat çıxıb aksiya eləyəndən sonra bir hissəyə asfalt tökdülər, guya bizi sakitləşdirsinlər. O da gördüyünüz kimi, yamaqdır. Konkret iş görülməlidir".

Sakinlərin müraciətinə rəsmi cavabda bildirilib ki, yolların təmiri nəzərdə tutulub. Ancaq nə vaxt planlaşdırılması açıqlanmır. Binəlilərə görə, şikayət etmək də mənasızlaşıb. Çünki kor-kor, gör-gör bu yollar keçilməzdir.

"Bizim nə siyasi tələblərimiz olub, nə hökumətdən pul istəmişik. Biz dövlətin yolları düzəltməsini istəyirik. Polis özü də görür ki, yol nə vəziyyətdədir. Burdan necə keçmək olar? Bizim əsas tələbimiz "Sovxoz" ərazisində yamaq-yamaq olan yolları düzəltməkdir,"- deyə digər qəsəbə sakini **Etimad Səmədov** gileylənir. Onun dediyinə görə, qış qurtarır, yol isə düzəldiləne oxşamır. Sakinlər qəzetimiz vasitəsilə aidiyyəti qurumların bu problemə diqqət göstərməsini xahiş edirlər.

**Qeyd edək ki, əhalinin yolların bərbad vəziyyətinə görə keçirdikləri etiraz aksiyası polislə toqquşma ilə sonuclanmış, bir neçə nəfər həbs edilmişdi. Bu aksiya 4 nəfərə cinayət işi açılması, 11 nəfərə inzibati həbs verilməsi ilə nəticələnmişdi. Daxili İşlər Nazirliyinin rəsmi məlumatında bildirilir ki, noyabrın 8-də 160-170 Binə sakini yolu bağlamağa cəhd göstərib:** "Bu cəhdin qarşısı alınarkən onlardan bir qrupu polisin haqlı tələblərinə tabe olmayaraq daş atıblar. Nəticədə Post-Patrul Xidməti Bölüyünün əməkdaşları, polis serjantları Xankişi Quliyevə, Elvin Ramazanova, polis kiçik serjantları Samir Bayramova və Zöhrab Hacıyevə xəsarət yetiriblər. "Fiat-Doblo" markalı iki xidməti avtomobilə ziyan vurulub".

❑ **E.SALAMOĞLU**



## Son üç gündə yol qəzalarında 20 nəfər ölüb

**Fevralın 23-də respublikanın yollarında 6 yol qəzası baş verib. Daxili İşlər Nazirliyindən "Qafqazinfo"ya verilən məlumata görə, 6 yol-nəqliyyat hadisəsi zamanı 9 nəfər ölüb, 6 nəfər yaralanıb. Qeyd edək ki, fevralın 21 və 22-də baş verən qəzalarda 11 nəfər ölüb. Son 3 gün ərzində 20 nəfər yol qəzasında dünyasını dəyişib.**


*Əyləncəli, sürətli, asan!*




*Klassik metodlardan fərqli olaraq,*
*Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*

- ✓ İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
- ✓ Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
- ✓ Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
- ✓ Əla tələffüz və güvənlə danışmaq
- ✓ Real ingiliscə söhbətlər

BONUS
english EXPLOSION
dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*



# Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar** və **ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**



## Dünyaca məşhur olan Qırğızıstan balı və müalicəvi bal məhsulları Azərbaycanda

- *Arı südü*
- *Mumiya*
- *Möhtəşəm ağ bal*
- *İssık-Kul balı*
- *Esparset balı*
- *Çayek balı*
- *Karkıra balı və s.*

**Ünvan:** Bakı şəhəri, Neftçi Qurban küçəsi 119
**Tel:** (012) 491-23-82; (051) 922-15-71



# Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34



# Təcili satılır

**Lökbatan qəsəbəsinin mərkəzində, H.Əliyev parkının yanında 220.kv.m evrotəmirli, 2 mərtəbəli, 7 otaqlı döşəməsi parket, qapıların və pilləkənləri palıd ağacından, telefonu, qarajı, hamamı, mətbəxi, həyətində meyvə ağacları olan 3 sot torpağın üzərində tikilmiş villa**

TƏCİLİ SATILIR.

**3-cü mərtəbəni də tikmək olar (mansard).**
**Qiyməti razılaşma yolu ilə (Real qiymətdən ucuz)**
**Əlaqə telefonları**: 077 - 769 - 59 - 10; 077 - 365 - 98 - 40; 012 - 497 - 43 - 04



**Elan**

**Jeleznovodsk şəhəri, stansiya Beştau, Qlinki-15 ünvanında ikimərtəbəli binanın 1-ci mərtəbəsində tam təmirli 2 otaqlı mənzil, kombi sistemi ilə təchiz olunub, avadanlıqları ilə birlikdə Bakı şəhərinin istənilən yerində mənzillə dəyişdirilir.**
**Əlaqə nömrəsi: +79283706928**

Fevralın 24-də Azərbaycanda dolların məzənnəsi cüzi qalxıb. Mərkəzi Bankdan "Trend"ə bildirilib ki, 24 fevral tarixinə müəyyənləşdirilmiş məzənnəyə əsasən, 1 dollar 1,0501 manat olub. Avro isə nisbətən ucuzlaşaraq 1,1906 təşkil edib. Mərkəzi Bank tərəfindən valyuta qanunvericiliyinə, o cümlədən valyuta bazarında nağd alqı-satqı məzənnələrinin müəyyənləşdirilməsi zamanı mövcud tələblərə riayət olunması daim diqqət mərkəzində saxlanılır.

# Dollar "zirvədə" qaldı, əmanətlərin faiz dərəcəsi artırıldı

## Əmanətlərin faiz dərəcələri 9%-dən 12%-ə qaldırılıb; Mərkəzi Bank 10 valyuta mübadilə şöbəsini ləğv etdi

Mərkəzi Bank tərəfindən 23 fevral 2015-ci il tarixdə aparılmış monitorinqlər zamanı 6 bankın 10 valyuta mübadilə şöbəsi tərəfindən mövcud tələblərin gözlənilməməsi halı aşkarlanıb və həmin şöbələrə verilmiş icazələr ləğv edilib.

Fevralın 24-də məlum olub ki, Əmanətlərin Sığortalanması Fondu sığortalanan bank əmanətləri üçün faiz dərəcələrini dəyişib. Fonddan verilən məlumata görə, fevralın 24-dən etibarən maksimum faiz dərəcələri 9%-dən 12%-ə qaldırılıb: "Əmanətlərin Sığortalanması Fondu əmanətçilərin diqqətinə çatdırır ki, 2015-ci il fevral ayının 24-dən etibarən banklarda yerləşdirilən qorunan əmanətlər üzrə faiz dərəcəsinin yuxarı həddi 9%-dən 12%-ə qaldırılmışdır.

Fondun Himayəçilik Şurası 23 fevral 2015-ci il tarixində keçirilən növbədənkənar iclasında qorunan əmanətlər üzrə faiz dərəcəsinin yuxarı həddinin 9 faizdən 12 faizə qaldırılması barədə qərar qəbul edib. Bu dəyişiklik 24 fevral 2014-cü il tarixindən qüvvəyə minir və bu tarixdən sonra üzv banklarda illik 12 faizdən yuxarı faiz dərəcəsi ilə yerləşdirilmiş əmanətlər qorunmayan əmanət hesab ediləcəkdir".

**Ekspert Vüqar Bayramov musavat.com-a açıqlamasında faizlərin artırılmasını inflyasiyanın siqnalı kimi dəyərləndirib:** "Burada söhbət sığortalanan əmanətlərin faiz dərəcələrinin artırılmasından gedir və faiz dərəcələri 9 %-dən 12 %-dək artırılıb. Bu onu göstərir ki, artıq banklar inflyasiyaya hazırlaşırlar. Sığortalanan əmanətlərin faiz dərəcələrinin artırılması ilə bağlı qərarın indiki məqamda əsas məqsədi ondan ibarətdir ki, kredit faizləri artırılacaq. Sığortalanan əmanətlərin faizinin artırılması kredit faizlərinin yüksəlməsi anlamına gəlir. Bu praktik olaraq inflyasiya ilə bağlı bir siqnaldır. Faizlərin 9 %-dən 12 %-dək qaldırılması




indiki halda əmanətlərin sərf edilməsinə ciddi təsir göstərməyəcək. Manatın kəskin devalvasiyası vətəndaşların manat yığımına çox təəssüf ki, mənfi təsir göstərdi. Güman olunur ki, məhz bu qərardan sonra vətəndaşlar xarici valyuta yığmaqda maraqlı olacaq".

Moody's Beynəlxalq Reytinq Agentliyi fevralın 23-də Azərbaycan banklarının aktivlərinin risklə üzləşdiyinə dair xəbərdarlıq edib. "Bloomberg" agentliyinin məlumatına görə, bu? fevralın 21-də Azərbaycanda milli valyutanın məzənnəsinin qəflətən dollar və avroya nisbətdə kəskin düşməsi ilə bağlıdır. Bununla bağlı Moody's bazar ertəsi Azərbaycan bankları, əsasən də Beynəlxalq Bank ASC və VTB ASC ilə bağlı "mənfi proqnozlar" irəli sürüb.

Bu addım kreditçilərin banklara təzyiqləri üzündən aktivlərin keyfiyyətinə mənfi təsir göstərib.

Analitiklər hesab edir ki, manatın devalvasiyası əmanətçiləri manat depozitlərini xarici valyutaya çevirməyə sövq edəcək. (AzadlıqRadiosu).

İqtisadiyyat və Sənaye Nazirliyindən bildirilib ki, istehlak bazarında süni qiymət artımının və sui-istifadə hallarının qarşısının alınması məqsədilə intensiv nəzarət tədbirləri davam etdirilir.

Bu barədə nazirliyin mətbuat xidmətindən musavat.com-a məlumat verilib.

Məlumatda bildirilir ki, aidiyyəti dövlət qurumları tərəfindən görülmüş tədbirlər və Dövlət Taxıl Fondunda yaradılmış ehtiyatlar hesabına unun qiymətindəki artımın qarşısı alınıb.

Bu isə çörək və çörək məhsullarının satış qiymətinin əvvəlki səviyyədə saxlanılmasını təmin edir.

❑ Röya RƏFİYEVA

# Market və bazarlarda bahalaşma həyəcanı

## İşbazların və inhisarçıların meydanı genişlənib; satıcılar da narazıdır, alıcılar da...









**Mərkəzi Bankın qərarı ilə dollar və avronun bahalaşması, manatın dəyərdən düşməsi ölkənin bütün iqtisadi-sosial sahələrini iflic duruma salıb. Buraya ərzaq məhsulları, kənd təsərrüfatı məhsulları, dərman preparatları, daşınar və daşınmaz əmlak, elektrik avadanlıqları və sair daxildir. Ancaq əhalini ən çox narahat edən məsələ gündəlik istehlak məhsullarının bahalaşmasıdır.**

"Yeni Müsavat" sözügedən sahələrdə vəziyyəti öyrənmək üçün araşdırma aparıb. Məlum olub ki, dollar və avronun bahalaşması ölkədə müxtəlif sahələrdə ticarətə öldürücü zərbə vurub.

Son durumu öyrənmək üçün ilk olaraq, ərzaq məhsulları satılan iri marketlərə baş çəkdik. Marketlərdə əksər yeyinti məhsullarının, xüsusən də gündəlik tələbat malları olan unun, yumurtanın, kərə yağının, duru yağların, şəkər tozunun, qəndin, siqaretin, təmizlik vasitələrinin və sairin qiymətində 25-30 faiz artım müşahidə olunur.

Marketlərdə əvvəllər 7.4 AZN-ə satılan Zellandiya yağı hazırda 10.5 AZN-ə satılır. Şəkər tozu və qəndin qiymətində 30 qəpik bahalaşma var. Günəbaxan, qarğıdalı, zeytun yağları da 30-40 faiz bahalaşıb. Həmçinin qazlı içkilər, şirin sular, meyvə şirələri 10 qəpik bahalaşıb. Əvvəllər 6-7 qəpiyə satılan yumurtanın qiyməti indi 10 qəpikdir. Həmçinin süd və süd məhsullarının da qiyməti 40-50 qəpik artıb. Əvvəllər 1.2 manata satılan bəzi xamaların qiyməti 1.9 manat olub.

Əksər marketlərdə çörəyin qiyməti isə dəyişməz olaraq qalır.

**"Səkkizinci kilometr" bazarında olarkən gördük ki, əksər kənd təsərrüfatı məhsulların da qiymətində bahalaşma var. Satıcı Eyvaz Hüseynov meyvələrin qiymətində 20-50 qəpik bahalaşma olduğunu deyir:** "Son günlər kənd təsərrüfatı məhsullarının topdansatış qiymətində artım var. Biz də məhsulları baha aldığımız üçün məcburən baha satmalı oluruq. Məsələn, əvvəllər armudun kiloqramı 1.6 manat idisə, indi 2.4 manata satırıq. Kivi və bananın hər kiloqramında 40 qəpik artım var. Narınginin qiyməti əvvəl 1.5 manat idisə, indi 2 -2.5 manata satılır. Həmçinin 1.2 manata olan portağal indi 1.6 manatdır. 3.5 manata satılan ananas indi 4-4.2 manatdır".

**Söhbətə qatılan başqa bir satıcı isə əvvəllər topdansatış mərkəzlərində qiymətlərin kəskin artmasından şikayətləndi: "Əvvəllər almanın 20 kq-lıq yeşiyini 9 manat alırdıq, ötən gün eyni məhsulu 12 manata almalı olduq. Bananın bir yeşiyi 37 manat idi, indi 40 manatdır. 20 kiloqramı 20 manata satılan armud indi 28 manata qalxıb".**

Bazarda söhbətləşdiyimiz əksər satıcılar son günlər alıcılığın aşağı olmasından şikayətlənirlər. Bazarda təkcə meyvənin deyil, tərəvəz məhsullarının da qiyməti artıb. 70 qəpiyə satılan kartof 1 manat, 50 qəpikdən satılan soğan 70 qəpiyə təklif olunur. Xüsusən də Rusiya və İrandan gətirilən kartof 20-30 qəpik bahalaşıb. Ancaq Gədəbəy-Tovuz bölgəsindən gətirilən yerli kartofun da qiyməti 20-30 qəpik artıb. Satıcılar bunu fermerlərin mövcud vəziyyətdən sui-istifadəsi kimi qiymətləndirirlər.

Kələm və kökün qiymətində də kəskin artım var. Kələmin bir kiloqramı əvvəl 0.6 manat idisə, indi 1 manata təklif olunur, kökün qiymətində də 30-40 qəpik artım var. Türkiyədən gətirilən qırmızı mərci isə 1.4 manatdan 2 manata qədər bahalaşıb.

Bazarda müşahidə apardığımız zaman satıcılarla alıcılar arasında mübahisələrin də şahidi olduq. Alıcı xanımlardan biri bir neçə gün öncə 60 qəpiyə aldığı kələmin indi niyə 1 manata satıldığını soruşub satıcının haqsızlıq etdiyini deyirdi.

### Novruz bayramı gəlməmiş quru meyvələr bahalaşdı

**Bahalaşma quru meyvələrin qiymətinə də təsir göstərib. Onların əksəriyyəti xaricdən gətirildiyi üçün topdansatış mərkəzlərində qiymətlər kəskin artıb. Satıcı Namiq Cəfərovun sözlərinə görə, əksər məhsullar 2-3 manat bahalaşıb:** "Əvvəllər kiloqramı 10 manata satılan qoz ləpəsi indi 12 manatdır. 11 manata olan badam 15 manata satılır. 3.2 manata satılan kişmiş bahalaşaraq 4.4 manat olub. Kiloqramı 8 manata olan ərik qurusu 10 manata qalxıb. 3.6 manata satılan xurma 4.8 manata qədər bahalaşıb".

**N.Cəfərov dedi ki, yerli sahibkarlar da xaricdən gələn məhsulların bahalaşmasını görüb yerli məhsulların qiymətini artırırlar:** "Məsələn, fındıq ləpəsi yerli məhsuldur, bunun nə dollardan, nə də avrodan asılı bir tərəfi yoxdur, ancaq topdansatış mərkəzlərində bahalaşıb, biz də məcbur olub baha qoymuşuq. Əvvəl 8.8 manata satdığımız fındıq ləpəsi indi 10.3 manatdır. Bu, sadəcə, mövcud durumdan sui-istifadədir və alıcılığı öldürür. Bu gün heç nə sata bilməmişik, insanlar gəlib qiymətləri soruşub qayıdırlar".

### "Gömrük rüsumu ləğv edilsin"

**Tərəvəz alveri ilə məşğul olan Sahib Kərimov deyir ki, hökumət xaricdən gətirilən məhsulların bahalaşmasına qarşı tədbirlər görməlidir:** "Rusiyada böhran başlayanda onlar Azərbaycandan aparılan ərzaq məhsullarına gömrük rüsumunu ləğv etdilər ki, qiymətlər kəskin artmasın. Çünki orada dövlət vətəndaşlarını düşünür. Azərbaycan hökuməti də bu addımı ata bilər. Gömrük rüsumu ləğv edilsə və ya güzəştlər olsa bu qədər bahalıq olmaz. Sadə insanların da ölkəyə mal gətirməsinə şərait yaratmaq lazımdır. Yüksək vəzifəli şəxslər və onların yaxın adamları ölkəyə mal gətirir və bu da monopoliya yaradır. Özləri istədikləri qiyməti qoyub, bazara verirlər".

Satıcılar son günlər heç bir dövlət qurumunun bazarlarda yoxlama apardığının şahidi olmadıqlarını bildirdilər.

❑ Nərgiz LİFTİYEVA
Fotolar müəllifindir

# YENİ MÜSAVAT

## Son səhifə

N 42 (6070) 25 fevral 2015


# Əvvəl nazir idi, sonra xadimə oldu





İsveçdə iqtidardakı Sosial Demokrat Partiyasının ilk qadın lideri və sabiq nazir Mona Sahlinin qızının sahibi olduğu təmizlik firmasında "otaq xadiməsi" olaraq çalışdığı məlum olub. "Exprressen" qəzetinə müsahibə verən Sahlin "siyasət üçün darıxmamışam. Bir daha siyasətə qayıtmayacağam" deyə, bildirib. İş zamanı başına gələnləri danışan sabiq nazir bir müddət əvvəl hotel otaqlarını təmizləyərkən bir müştərinin onu tanıdığını və ona yazığı gəldiyini deyib. Lakin çox keçmədən Sahilin bu işdə həvəslə çalışdığını deyib və onlar uzun müddət bu vəziyyətə gülüblər.



# 4 yaşlı oğlanın sirli xəstəliyi

Onun sağ ayağının çəkisi 5,4 kiloqramdır. Ayağı az qala özündən böyük olan 4 yaşlı oğlan hələ ki gəzir, oynayır, gülür. Amma həkimlərin dediklərinə görə, təcili müalicə başlanmazsa, uşaq ən yaxşı halda ömrünün sonunadək dəhşətli ağrılar hiss edərək şikəst qalacaq. Milli.az "Daily Mail"ə istinadən bildirir ki, Hindistanın Qucarat ştatında doğulmuş Verdant Coşinin sağ ayağı vücudu ilə müqayisədə nəhəngdir. Yerli və əcnəbi həkimlərin, yüzlərlə həkimin müayinə etdiyi Verdantın dərdinə əlac tapılmayıb. Həkimlər çarə kimi ayağın amputasiyasını, kəsilməsini görürlər. Verdantın atası Dilip Coşi isə oğlunun ayağının kəsilməsini istəmir. Vücudundakı hormonal disbalans nəticəsində sağ ayağında anadangəlmə qüsur olan Verdantın bu "nəhəng əza"sı sürəkli böyüyür.

"Mən də yaşıdlarım kimi futbol və kriket oynamaq istəyirəm. Amma oynaya bilmirəm. Məktəbə getmək istəyirəm. Müəllimlərsə atama deyiblər ki, oxuya bilmərəm. Mənə kömək edin" deyə, 4 yaşlı Verdant Coşi söyləyib.

Balaca Verdantın anası, 26 yaşlı Ceşri Coşinin dediyinə görə, oğlu yaşıdları ilə oynaya bilmədiyi üçün vaxtını 1 yaşlı bacısı Vrişa ilə keçirir. Valideynləri Verdantın dərdinə çarə tapmaq üçün onu Mumbay, Udaypur və Çennay şəhərlərindəki hospitallara aparıblar.

# Saç boyaları xərçəng əmələ gətirir

Hər yaşda gözəl və cavan görünmək hər kəsin arzusudur. Ancaq bəzən gözəlləşmək həvəsi xəstəliklərə də səbəb ola bilir. Dünya Qida və Tələbat Maddələri Yoxlama və Sertifikalama Araşdırmaları Dərnəyi aparılan araşdırmalar nəticəsində bəzi saç boyalarının lenfoma və sidik kisəsi xərçəngi kimi xəstəliklərə səbəb olduğunun aşkar edildiyini bildirib. Daha gözəl və ya daha cavan görünmək üçün saç boyamağa davam edənlər xəstəliklərə yaxalanma riskini gözə almış olurlar. Saç boyalarının lenfoma xərçəngi riskini artırdığı aşkar edilib. Barselonadakı Katalon Onkologiya İnstitutundan Doktor Silvia de Sanjose ilə həmkarlarının araşdırması saç rəngləndiricilərini 1980-dən əvvəl istifadə etməyə başlayan qadınların lenfoma riskini artırdığı vurğulanıb. Araşdırmada saçlarını boyayanlar arasında bu xəstəliyə yoluxma riskinin 19 faiz çox olduğu bildirilərkən, saçlarını ildə 12 dəfə və ya daha çox boyayanların xəstəliyə yaxalanma riskinin yüzdə 26-dan daha çox olduğu qeyd edilib. 15 il ərzində saçlarını tez-tez xüsusilə də tünd rənglərlə boyayan qadınlarda sidik kisəsi xərçənginə yaxalanma riski heç boyamayanlara nisbətən 3 dəfə daha çoxdur.





# Hamar qarın üçün 10 qayda

Hamar qarına sahib olmaq üçün pəhriz saxlamaq kifayət etmir. Bunun üçün bir çox idman hərəkətlərinə və vərdişlərə əməl etmək vacibdir. Sizi arzusunda olduğunuz qarına sahib edəcək 10 qızıl qaydanı təqdim edirik...

Stressdən uzaq olun;
Spirtli içkiləri unudun;
Siqaret çəkməyin;
Lifli qidadan daha çox istifadə edin;
Çoxlu su için;
Sümükləri unutmayın;
Aerobika məşqləri;
Qarnınızı çəkin;
Artıq çəkidən azad olun;
Qarın əzələlərini yükləyin.




QOÇ - Ulduzların düzümü təxminən saat 13-dək riskli işləri təxirə salmağı tövsiyə edir. Əks təqdirdə mübahisələrə mübtəla olacaqsınız. Sonrakı müddətdə isə yeni təkliflər alacağınız gözlənilir.

BUĞA - Yaxşı olar ki, sizə aidiyyəti olmayan məsələlərə qarışmayasınız. Əlavə başağrısı nəyinizə lazımdır? Öz ideyalarınızı reallaşdırmağa çalışın. Əsas vaxtı sevgiyə yönəldin.

ƏKİZLƏR - Səhər saat 09:53-dən mənfi enerjili Ay bürcünüzdə qərar tutsa da, ovqatınız yaxşı olacaq. Ətrafınızdakı hadisələr sizə sevinc bəxş edə bilər. Saat 14-dən sonra şəxsi büdcənizi artıra bilərsiniz.

XƏRÇƏNG - Bu maraqlı təqvimdə səfərə çıxmaq üçün şanslarınız var. Odur ki, hazırlaşmağa dəyər. Yalan vədlər vermək, yaxın adamları aldatmaq sizə zərər yetirə bilər. Bəxtinizdə pul da var.

ŞİR - Maliyyə problemlərinizin artmasına baxmayaraq iş prinsipində hər şey ürəyinizcə olacaq. Ola bilsin ki, sizi narahat edən bəzi fəaliyyət sahələrində irəliləyiş baş versin.

QIZ - Bacardığınız qədər neytral olun. Yeni işlərə başlamaq, risk etmək, hansısa qeyri-müəyyən münaqişələri yatırtmaq fikrinə düşməyin. Yalnız adi işlər görməklə bu təqvimi başa vurun.

TƏRƏZİ - Bəxtinizdə mistik bir gün durur. Belə ki, qeyri-adi hadisələr, anlaşılmaz situasiyalar sizi müşayiət edəcək. Hisslərinizə nəzarət etməyi unutmayın. Ziyarətgahlara baş çəkin.

ƏQRƏB - Qarşınızda mübahisəli bir təqvim durur. Hisslərinizi cilovlayın. Başqaları haqqında əmin olmadığınız rəy bildirməyin. Dondurduğunuz işləri isə saat 18-dən sonra davam etdirə bilərsiniz.

OXATAN - Ulduzlar ilk növbədə əsəblərinizi qorumağı tövsiyə edir. Çünki indiki məqamda çılğınlıq etməyiniz sizi çox şeydən məhrum edə bilər. Əməkdaşlıqda isə uğurlarınız gözlənilir.

OĞLAQ - Şəxsi işlərinizdə müsbət dönüş gözlənilir. Amma bir az diqqətli olun. Çalışın ki, "qatara" gecikməyəsiniz. Nahardan sonra xoşagəlimli hadisələr olmalıdır. Qohumlarla əlaqə saxlayın.

SUTÖKƏN - İndiki məqamda lovğalıq və özündənrazılıq kimi hisslər sizə başucalığı gətirən deyil. Bu səbəbdən də reallığa qiymət vermək lazımdır. Təcrübəli adamlardan yararlanın.

BALIQLAR - Qarşılıqlı münasibətlər zəmində bəzi xoşagəlməzliklərlə rastlaşa bilərsiniz. Odur ki, özünüzü mümkün qədər cilovlamalısınız. Nəqliyyatdan az yararlanın. Fiziki işlərə ara verin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# 59 ildir ayaq basılmayan ev



59 ildir qapısı açılmayan evin şəkilləri hər kəsi heyran edib. Bu illər ərzində evə kimsə ayaq basmayıb. 1956-cı ildə inşa edilmiş bu ev özəlliklə mətbəxi ilə diqqəti cəlb edir. Mətbəxdəki əşyalar o illərin ən müasir və ən bahalı məişət texnikası olub. Hətta müasir dövrdə belə hər qadının arzuladığı bu mətbəxdən heç vaxt istifadə edilməyib. Çəhrayı rəngli mətbəx bu günümüzə qədər bu şəkildə gəlib çıxıb.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.